

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yaşıl ideyalara Azərbaycan platformasından baxış




4

SƏS
№ 062 (6987)
9 aprel 2024-cü il.
Qiymətı 60 qəpik

## Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



2

# Sülh görüntülü müharibə anonsu



5

## Fitrə zəkatını necə verməliyik: pulla, yoxsa ərzaqla?



9

## Dayə, yoxsa bağça: hansı etibarlıdır?



9

## Dağıdıcı müxalifət və antimilli ünsürlər Parisdən idarə olunurlar



13

## Kəlbəcərin taleyindən ötən aprellər...

11




## "E-taksi" yaradılıb, kartı olmayanlar cərimələnəcək




16

# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

***Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu bu ayda müsəlmanlar Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq fürsəti qazanırlar. AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikində yer alıb.***



Dövlətimizin başçısı vurğulayıb ki, xalqımız taleyinin ən çətin dönəmlərində belə öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlayıb. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir. Builki Ramazan bayramı həm də otuzillik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır.

"Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq hissləri ilə yola salırlar. Ölkəmizin hər yerində xalqımıza xas xeyriyyəçilik və yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad edilir. Ümidvaram ki, dua və niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilərək cəmiyyətimizdə birliyi və həmrəyliyi daha da gücləndirəcək", - deyə Prezident İlham Əliyev qeyd edib.

## Rəsmi xronika

Ramin Ələmşah oğlu Məmmədov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilib. SİA-nın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev bir sıra məhkəmələrin sədrlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Müdrik Lider, Böyük Sərkərdə




*Prezident İlham Əliyev: "Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır"*

***2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müdrik Lider, Böyük Sərkərdə - Prezident İlham Əliyev Dövlətimizin başçısı son 20 ildə xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır.***

Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar yerinə yetirilib. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrildi.Azərbaycan dünyada güclü və nüfuzlu dövlət və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır.

### REGİONLARIN İNKİŞAFINA HESABLANAN DÖVLƏT PROQRAMLARI

Ötən iyirmi il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Son 20 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib.

Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanıb. Bütün bu və ya digər göstəricilər və statistik rəqəmlər deməyə əsas verir ki. Azərbaycan böyük bir ikkişaf yolu keçərək nufuzunu yüksəltmələy nail olub. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb.

TƏHLİL

Ardı Səh. 3

# Müdrik Lider, Böyük Sərkərdə



Əvvəli-Səh-2

### “XOŞ NİYYƏTİMİZ VƏ XARİCİ SİYASƏTİMİZİN ƏMƏKDAŞLIQ ÜZƏRİNDƏ QURULMASI BİZƏ BÖYÜK DOSTLAR DÜŞƏRGƏSİ QAZANDIRA BİLMİŞDİR”

Dövlətimizin kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə etdiyi uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münavə geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış döv-



sibətlər, davamlı inkişaf, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir. Cənab Prezident müdrik qərarlarıyla xalqımızın uğur simvoluna, qurucu Liderinə çevrilib. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

”Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır”, - deyə Prezident bildirib. Cənab İlham Əliyevin dünyada gedən geosiyasi lət xadimləri içərisində xüsusi yer tutur.

Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, ”Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur”, - deyə bildirmişdir.

### ATA VƏSİYYƏTİNİ GERÇƏKLƏŞDİRƏN SİYASİ VARİS

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır.

Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında ermənisə dərs verdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Ötən ilin sentyabrında rəşadətli ordumuz Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində erməni hərbi birləşmələrini diz çökdürdü. Cəmi 24 saat ərzində qarşı tərəf ağ bayraq qaldıraraq təslim oldu. 44 günlük Vətən müharibəsindən sonra Ermənistan silahlı qüvvələrinin hər bir təxribatının qarşısını qətiyyətlə alması bir daha ordumuzun gücünün göstəricisidir. 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenlik tam bərpa olundu.

### GƏLƏCƏK İŞIQLI YOLDA DAHA BÖYÜK UĞUR VƏ NAİLİYYƏTLƏR

Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: ”Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq”.

Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbəyə apardı. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilir.

İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur.

Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. ”Ağıllı şəhər”, ”ağıllı kənd” və ”yaşıl enerji zonası” konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir. Azərbaycanın ötən 20 il ərzində inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olması bu uğurlara söykənir. Ölkəmizi gələcək işıqlı yolunda daha da böyük uğur və nailiyyətlər gözləyir.

***Zümrüd BAYRAMOVA***

***Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan və böyük təcrübəyə sahib Azərbaycan dövləti toplantıların yüksək səviyyədə keçirilməklə göstərilən etimad və inamı yüksək səviyyədə dorğuldur. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan COP29-a da Azərbaycan ev sahibliyi edəcəkdir. Vurğulayaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı – COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir.***




# Yaşıl ideyalara Azərbaycan platformasından baxış

Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

Bildiyimiz kimi, COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də belə bir tədbirin keçirilməsində ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Əlbəttə ki, bu tədbirin keçirilməsi çox məsuliyyətli proses olacaq. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.

## İQLİM DƏYİŞİKLƏRİNDƏ BİRGƏ SƏYLƏR

2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir inam və ehtiramın göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".





## "BU QƏRAR ANTİTERROR ƏMƏLİYYATINDAN İKİ AY YARIM SONRA QƏBUL OLUNMUŞDUR"

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir. İlk növbədə ölkəmizə gələn qonaqlar inkişafı öz gözləri ilə görmək imkanı qazanır, daha sonra isə bu haqda ətraflı məlumatlanırlar. "Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi. Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir", – deyə Prezident İlham Əliyev çıxışlarının birində diqqətə çatdırıb.

COP29 Azərbaycanda bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Belə ki, Avropa Oyunlarınında 5 min idmançı və onları müşayiət edən 3 minə yaxın qonaq ölkəmizə gəlmişdir. COP29-da isə gözləntilər daha çoxdur. Təqribən 70-80 min xarici qonağın ölkəmizə gəlməsi gözlənilir.

## COP29 AZƏRBAYCAN GÜNDƏLİYİNİN YAŞIL ENERJİ İLƏ BAĞLI OLMASINI SƏRGİLƏYƏCƏK

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab oluna bilər. Azərbaycanın üzərinə düşən vəzifəni yerinə yetirəcəyinə və COP29-u ən yüksək səviyyədə keçirəcəyinə heç kim şübhə etmir. Hazırlıq işlərinin layiqincə aparılması üçün Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb, əlaqədar qurumlar səfərbər edilib.İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyəcəkdir. Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərə olan sadiqliyinin daha bir ifadəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***







# Sülh görüntülü müharibə anonsu

## Cənubi Qafqazda sülh prosesi yenidən iflasa uğramaq ərəfəsindədir




***Ermənistan son müharibədə məğlubiyyətinin əsas günahkarı Rusiyadan qopmaq üçün bütün imkanlarını sınamaqdadır. Avropa və ABŞ-la yaxınlaşdığını və yeni himayədarlarının onu sona qədər müdafiə edəcəklərini düşünür. Brüsseldə keçirilən üçtərəfli görüşdən Paşinyan razı kimi qayıdıb, amma Ermənistan cəmiyyəti, prosesi yaxından izləyən siyasətçilər erməni dövlətinin hərraca çıxarıldığını və cəmi 350 milyon dollara satıldığını deyirlər.***

Bu vəsait Ermənistana 4 il ərzində yavaş-yavaş veriləcək. Halbuki, Qərbin, xüsusən də ABŞ-ın Ermənistana 1993-97-ci illər ərzində etdiyi bənzər yardımlar bundan 15 dəfə çox idi. 2021-ci ildə Fransanın diqtəsi ilə Avropa Birliyindən Ermənistana 2,5 milyard avro veriləcəyi barədə söz-söhbətlər gəzsə də, sonrakı proseslər bunun yalan olduğunu təsdiqlədi.

...Paşinyanın Brüsselə səfəri və geri dönməsi ilə eyni vaxtdan Ermənistan-Azərbaycan sərhədində silsilə atışmalar baş verdi. İrəvan və Bakının bir-birini ittiham etdiyi yeni gərginlik ABŞ-Aİ-Ermənistan formatında danışıqlar prosesi fonunda baş verdi. Cümə günü Brüsseldə keçirilən görüşün mövzularından biri Cənubi Qafqazda sülh prosesi olub. Moskva və Bakı bu təmasları ikinci Qarabağ müharibəsindən sonra yaradılmış Rusiya-Ermənistan-Azərbaycan danışıqlar mexanizminin dağıdılması, Ermənistanın Qərbin hərbi forpostuna çevrilməsi istiqamətində ilk addım hesab edir.

İki ölkənin hərbi idarələri Ermənistan və Azərbaycan sərhədində aprelin 5-də başlayan və ertəsi gün inkişaf edən yeni eskalasiya barədə məlumat veriblər və ənənəvi olaraq gərginliyə görə bir-birini məsuliyyət daşımaqda ittiham ediblər. Yeni gərginlikdən əvvəl ötən həftənin sonunda Azərbaycan mətbuatında yer alan foto və videomateriallar, həmçinin Ermənistan ordusunun bölmələrinin Zəngəzur (Sünik rayonu) istiqamətində sərhədə yeridilməsi ilə bağlı xəbərlər yayılıb. Ermənistan tərəfi isə öz qüvvələrinin sərhəddə toplanması ilə bağlı məlumatı təsdiqləməyib.

Vəziyyətin gərginləşməsi ilə bağlı diplomatik idarələr də bəyanatlarla çıxış edərək sülh prosesinin ciddi maneələrlə üzləşdiyini təsdiqləyiblər. Ötən şənbə günü Ermənistanın İctimai Televiziyasına müsahibəsində ölkənin Xarici İşlər Nazirliyinin rəhbəri Ararat Mirzoyan etiraf edib ki, tərəflərin iki əsas məsələ üzrə razılığa gələ bilməməsi səbəbindən Azərbaycanla sülh müqaviləsinin imzalanması dalana dirənib: ərazi bütövlüyünün qarşılıqlı tanınması və kommunikasiyaların açılması.

Öz növbəsində, Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Ayxan Hacızadə İrəvanın əvvəllər müəyyən irəliləyiş əldə edilmiş danışıqları davam etdirməyə hazır olduğuna ciddi şübhə etdiyini bildirib. “Azərbaycan regionda ona qarşı yönəlmiş təhdidlərin qarşısını alacaq və sülhün bərqərar olması üçün səylərini davam etdirəcək. Ermənistanın sülh prosesinə ciddi yanaşdığını sübut etmək üçün ziddiyyətli bəyanatlardan və təxribat xarakterli addımlardan çəkinməli, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşmalıdır”, - deyə Azərbaycan XİN nümayəndəsi xəbərdarlıq edib.

Ermənistan-Azərbaycan sərhədində Cənubi Qafqazda kəskin diplomatik soyuqluqla müşayiət olunan gərginlik bir neçə gün ərzində baş verib. Cəmi bir həftə əvvəl tərəflər atəşkəsə riayət edirdilər və sülh müqaviləsi layihəsinin müzakirəsini davam etdirməyə hazırlaşırdılar. “Bu gün Ermənistan və Azərbaycan sülhə həmişəkindən daha yaxındır.





ANALİTİK

*Ardı Səh. 6*

# Sülh görüntülü müharibə anonsu

Əvvəli-Səh-5

Son altı ay iki ölkə tarixində Ermənistan-Azərbaycan sərhədində ən sakit dövrlərdən birinə çevrilib. Bu gün sülh həmişəkindən daha yaxındır, regionda de-fakto sülh hökm sürür", - deyə martın sonunda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bəyan edib.

### NATO Cənubi Qafqazda Rusiyanı əvəz edir?

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra 2020-ci il noyabrın 10-da Rusiya, Ermənistan və Azərbaycan liderləri müharibədən sonrakı üçtərəfli nizamlanma mexanizmi yaratdılar. 2022-ci ildə İrəvan və Bakı gələcək sülh müqaviləsini müzakirə etməyə başladılar. Bundan sonra, ötən il mayın sonunda Ermənistanın baş naziri Nikol Paşinyan bəyan etdi ki, İrəvan Azərbaycanın sovet sərhədləri daxilində, yəni Qarabağla birlikdə suverenliyini tanımağa hazırdır. Ötən ilin sentyabrında bir günlük hərbi əməliyyatdan sonra Bakı Qarabağa tam nəzarəti bərqərar etdi. Lakin Qarabağdan bir neçə yüz kilometr aralıda sərhədin demarkasiyası və delimitasiyasını tələb edən uzunmüddətli nizamlanma məsələsi heç vaxt həll olunmayıb və bu, potensial gərginlik mənbəyi olaraq qalır.

Sərhəddə atışmalar ABŞ-ın dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Avropa diplomatiyasının rəhbəri Cozep Borrel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirak etdiyi cümə günü ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşü zamanı başlayıb. Brüssel görüşü əvvəlcə həm Moskvanın, həm də Bakının kəskin mənfi reaksiyasına səbəb oldu. Azərbaycan tərəfi burada Qərbin Cənubi Qafqazın gələcəyi və regional təhlükəsizliyin təmin edilməsi şərtləri ilə bağlı İrəvanla arxadan danışıqlara başlamaq cəhdini gördü.

### Paşinyan İrəvanın qərbyönlü strategiyasını formalaşdırır

Bakının narahatlığını azaltmağa çalışan ABŞ-ın dövlət katibi Blinken Brüsseldəki görüş ərəfəsində Prezident İlham Əliyevə zəng edərək onunla regional məsələləri müzakirə edib. Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen də Azərbaycan dövlətinin başçısı ilə söhbət edib. Lakin tərəflər bir-birini başa düşməyib və heç nə ilə bağlı razılığa gəlməyiblər, İlham Əliyev bunu ötən həftənin sonunda Türkiyənin keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edərkən bəyan edib. "Son günlər həm ABŞ, həm də Avropa İttifaqının yüksək vəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları zamanı bizi bu görüşün Azərbaycana qarşı yönəlmədiyinə inandırmağa çalışsalar da, bunun Azərbaycana və Cənubi Qafqazda əməkdaşlığa qarşı yönəldiyini bilirik. Bu, ayırıcı xətlər yaratmaq və ölkəmizi təcrid etmək məqsədini güdür", - deyən





İlham Əliyev deyib. Prezidentin sözlərinə görə, Qərbi Ermənistanla birtərəfli oyun oynamaq istəyindən xəbərdar edib: "Gələcəkdə Ermənistanı Cənubi Qafqazda hərbi forposta çevirmək cəhdləri çox böyük mənfi nəticələrə gətirib çıxaracaq. Gələcəkdə Cənubi Qafqaz üçün hazırlanan planlar böyük fəlakətlə nəticələnə bilər. Bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımızı xəbərdar etmək üçün bəyanatlar vermişik".

Öz növbəsində Moskva Brüssel görüşünə Cənubi Qafqazı yeni geosiyasi qarşıdurmaya sürükləmək cəhdi kimi qiymətləndirir. "Qərb Ermənistan-Azərbaycan normallaşmasının fundamental əsasını – Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 2020-2022-ci illər üçün nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması, sərhədin delimitasiyası üzrə tədbirləri nəzərdə tutan üçtərəfli bəyanatlar toplusunu məhv etmək cəhdlərindən əl çəkmir. Məhz Vaşinqton və Brüsselin təzyiqi ilə rəsmi İrəvan bu sazişlərin icrasını dayandırıb, xüsusən də qarşılıqlı nəqliyyat blokadasının aradan qaldırılması məsələsində tərəflər qarşılıqlı məqbul həll yollarına yaxın idilər", - Rusiya XİN-dən bildiriblər.

### İrəvana Rusiya ilə əməkdaşlıq təklifi

Aprelin 5-də Brüsseldə Ermənistan, ABŞ və Aİ arasında aparılan danışıqlar sensasion nəticələrə və ya qalmaqallı bəyanatlara səbəb olmayıb. Lakin Rusiya və Azərbaycanın reaksiyaları yenə də kifayət qədər sərt olub. İndi İrəvan və onun Qərb tərəfdaşları Moskva və Bakı qarşısında özlərinə haqq qazandırmaq istəyirlər. Danışıqlar zamanı ABŞ və Avropa İttifaqı Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə həllinin tərəfdarı olduqlarını bildiriblər. Bundan əlavə, Brüssel Ermənistanın sosial-iqtisadi inkişafı üçün ona 270 milyon avro ayıracağına söz verib. Vaşinqton dövlət idarəçiliyini təkmilləşdirmək üçün respublikaya 65 milyon dollar verəcək. Onlar həmçinin Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının qarşısının alınmasına yönəlmiş "Dünyanın kəsişməsi" layihəsini dəstəkləyiblər.

Aİ-nin xarici əlaqələr üzrə rəsmisi Peter Stano bildirib ki, Brüsseldə keçirilən üçtərəfli görüş Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşmasından xəbər verir. Digər məsələlərlə yanaşı, viza rejiminin liberallaşdırılması ehtimalı getdikcə artır, lakin assosiasiyanın bütün üzvləri bununla razılaşmalıdır. Ermənistan-Azərbaycan münaqişəsinə gəlincə, Stanoya görə, Brüssel arbitr rolunu oynaya bilməz. "İstəsəniz, biz digər tərəfdaşlarla, ABŞ və BMT ilə dəstək rolunu oynaya bilərik, çünki bu, beynəlxalq hüquqa riayət etməkdir. Biz kimisə nəyisə etməyə məcbur etmək üçün rıçaq və ya məcburiyyətdən istifadə etmirik, əksinə tərəflərə həll yolu tapmaqda kömək etmək üçün xidmətlərimizi, ən yaxşı təcrübələrimizi və yaxşı niyyətlərimizi təklif edirik. Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan və Ermənistan bütün bunlarla razılaşmalıdır", - diplomat vurğulayıb. Bununla yanaşı, Stano bildirib ki, Aİ üçün hələ də Qarabağdan olan "qaçqınlar" problemini həll etmək vacibdir.

Eyni zamanda, Avropa İttifaqı Rusiyaya qarşı sanksiyaları pozmasa, Rusiya ilə Ermənistan arasında əməkdaşlığa qarşı deyil. "Rus əsgərlərinin, FSX-nin və ya hər hansı digər Rusiya hüquq-mühafizə orqanının Ermənistan ərazisində olması bu ölkənin istəyindən və suveren qərarından asılıdır. Biz demirik ki, bizdən daha çox istəyirsənsə, ruslardan əl çək. Aİ belə işləmir", Stano əmin edib.

Maraqlıdır ki, Brüssel görüşü başa çatdıqdan sonra elə ilk gecə Ermənistanla Azərbaycan arasında şərti sərhəddə atışmalara başlandı. Öz növbəsində Rusiya hakimiyyəti Brüsseldəki danışıqları kollektiv Qərbin Cənubi Qafqazı geosiyasi qarşıdurmaya çəkmək üçün növbəti cəhdi kimi qiymətləndirir. "Qeyri-regional qüvvələrin Cənubi Qafqazın işlərinə məsuliyyətsiz və dağıdıcı müdaxiləsi, region ölkələri ilə onların qonşuları arasında nifaq salmaq istəyi regionda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf üçün ən mənfi nəticələrlə nəticələnə bilər. , yeni ayırıcı xətlərin yaranmasına, eləcə də gərginliyin idarəolunmaz artmasına səbəb olur", - Moskvadan bildirilib.

Bundan əlavə, ruslar qeyd ediblər ki, Qərb Ermənistanın KTMT və AİI-dən çıxmasına, Rusiya hərbi bazası və sərhədçilərinin respublikadan çıxarılmasına çalışır. Bütün bunların fonunda Rusiya hakimiyyəti İrəvanı ABŞ və Aİ-nin yolu ilə getməməyə çağırır, çünki bu yol təhlükəsizlik boşluğunun yaranması, iqtisadiyyatda ciddi problemlər və əhalinin xaricə axını ilə doludur. Eyni zamanda, Moskva Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün vasitəçilik xidmətlərini təklif etməkdə davam edir.

Ermənistana ciddi kömək edə bilən və ya əksinə zərər verə biləcək qonşu dövlətlərdən yalnız İran Brüssel danışıqları barədə hələ də danışmır. Ermənistan hakimiyyəti bəyan edib ki, İranla ümumilikdə çox yaxşı münasibətlər var və heç bir anlaşılmazlıq yoxdur. İran hakimiyyəti həmişə deyir ki, regionun problemləri ilə yalnız yerli dövlətlər məşğul olmalıdır və xarici dövlətlərin müdaxiləsi qəbuledilməzdir. Amma Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ və Avropa İttifaqı nümayəndələri ilə görüşündən sonra heç bir müvafiq bəyanat verilməyib. Əksinə, Fransanın İrəvandakı səfiri bəyan edib ki, Ermənistan məsələsində Paris və Tehran eyni mövqedən çıxış edirlər. Ola bilsin ki, Ermənistanı böyük dövlətlər üçün sınaq meydançasına çevirmək İranın maraqlarına cavab verir, çünki o da öz payını alacağını gözləyir.

***V.VƏLİYEV***

# Azərbaycan Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün mühüm təşəbbüslərlə çıxış edir





*“Postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında problemlərin tənzimlənməsi: mövcud reallıqlar və beynəlxalq hüquq” mövzusunda tədbir keçirilib*

Aprelin 8-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə “Postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında problemlərin tənzimlənməsi: mövcud reallıqlar və beynəlxalq hüquq” mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, YAP Veteranlar Şurasının üzvü Urxan Ələkbərov tədbirin mövzusunun aktual olduğunu bildirib. O qeyd edib ki, hazırda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması beynəlxalq birliyin diqqət mərkəzindədir.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə qeyd edib ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün mühüm təşəbbüslərlə çıxış edib. Onun sözlərinə görə, Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan tərəfindən fəal iş aparılır. “Prezident İlham Əliyev dövlətimizin prinsipial mövqeyini bəyan edib. Lakin Ermənistan öz havadarlarına arxalanaraq müxtəlif bəhanələrlə sülh sazişinin imzalanmasını uzadır. Vaxtaşırı olaraq şərti dövlət sərhədində hərbi təxribatların törədilməsi də bu məqsədə xidmət edir” , - deyə Arif Rəhimzadə vurğulayıb.

YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov isə çıxışında bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsidir. Onun sözlərinə görə, Azərbaycan sülh sazişi imzalamaq üçün Ermənistana beş bənddən ibarət təkliflərini təqdim edib. Rəsmi Bakının təklifləri beynəlxalq hüquq normalarına əsaslanır.

Mövcud problemlərdən danışan N.Səfərov diqqətə çatdırıb ki, sərhədlərin delimitasiyası və demarkasiyası qarşıda dayanan başlıca vəzifələrdən biridir. Minalanmış ərazilərin təmizlənməsi də əsas çağırışlar sırasındadır. Ermənistanın dəqiq mina xəritələrini Azərbaycana verməsi beynəlxalq humanitar hüquqa dair Cenevrə Konvensiyalarına əsasən onun öhdəliyidir. Natiq, həmçinin dəymiş ziyana görə Ermənistanın kompensasiya ödəməsinin, eləcə də müharibə cinayətlərinə görə cavab verməsinin beynəlxalq hüququn tələbi olduğunu vurğulayıb.

Tədbir interaktiv formada davam edib və iştirakçıların sualları cavablandırılıb.

# 24 saat niyə bizə yetmir?



Zaman geri qaytarılmayan, ehtiyatda saxlanmayan, pulla alınmayan anlayışdır və hamımızın ona ehtiyacı var. Yoxluğu hava-su qədər hiss olunur, varlığı isə bütün işlərimizə yetərli olacaq qədər bol olmur. Bəlkə də bir çoxu bu düşüncədədir, sanki gün saat olaraq qısalıb, 24 saat anlayışı yetərsiz qalıb. Əvvəl 24 saata yerləşdirdiyimiz işlərimizi indi yerləşdirə bilmirik, zaman yetmir və bizi çox narahat edir, yuxumuzu pozur, işlərimizi qaydasından çıxarır.

Zaman anlayışının həyatımızda bu qədər vacib olmasının bir çox səbəbi var. Bir çoxumuz gündəlik standart rejimə tabeyik, oyanmaq, yemək, iş, gəzinti, yatmaq üçün bəlli bir saatımız var. Əvvəl bizə gen-bol yetən 24 saat indi heç bir planımızı dəstəkləmir, bizi tələsdirir, qaçaqaça salır. Əlimizdə olan məhdud vaxtdan ən məhsuldar şəkildə istifadə etmək həm bizim əlimizdədir, həm də bizdən asılı olmur.

Həyatımız sürətlə axır, illər, aylar, günlər, saatlar inanılmaz sürətlə ömrümüzdən gedir. Saatlar bir-birini qovduqca, günlər tələsdikcə edəcəklərimizin bir çoxunu təxirə salmalı oluruq. Hər kəs üçün standart olan 24 saat kimimizə görə sıxıcı, kimimizə görə məhsuldar, bir çoxumuza görə isə yetərsiz olur. Hər gün planımızın bir neçəsini təxirə salmaqla, məşğuliyyətlərimizi vaxt yetərsizliyindən arxa plana atmaqla qovaqov həyatımızı sürətlə yaşayırıq və bu qaçaqaçın içində necə qocaldığımızın fərqində olmuruq.

Zaman anlayışını necə qəbul etdiyimizi heç düşünmüsünüzmü? Uşaqlar onu məktəbə gedib qayıtdıqdan sonra bir neçə saat həyətdə oynadıqları vaxta hesablayırlar, böyüklər isə işdən sonra nə qədər özlərinə zaman ayıra bildikləri ilə ölçürlər. Yəni zamanı bizə faydalı olduğu zaman məhsuldar sayırıq, işlərimizi yetişdirməyəndə yox.

Zaman anlayışı mücərrəd anlayış olsa da, insan beyni bu anlayışı konkretləşdirərək qavramağa çalışır. Bu qavrama mərhələsində bizə kömək edən bir neçə amili qeyd etmək lazımdır. Lap əvvəllər, hələ saatın, sutkanın nə olduğunu bilmədiyi zamanlarda insanlar gündüzlər günəş, gecələr ay ilə gecə və gündüz anlayışını inkişaf etdirdilər və gün işığına, kölgələrin istiqamətinə görə vaxtı təyin edirdilər. Sonra il, torpağın əkilməsi, məhsulun yetişməsi, biçilməsi vaxtları ilə mövsümlərə ayrıldı, mövsümlər aylara, həftələrə, günlərə bölündü. İnsanların zaman anlayışı elm və texnologiya ilə inkişaf etdi, don dəyişdirdi. İnsan aman anlayışını rəqəmlərlə ifadə etdi. İllər əvvəl nə başlanğıcı, nə də sonu olan zaman anlayışı vardısa daha günlərin, saatların mövcudluğuna alışdı insan. Əvvəl vaxtdan bol heç nə yox idi, indi vaxtdan dəyərli heç nə yoxdur. Bəs bizim zaman anlayışımızı dəyişən nədir?

Bu gün zaman anlayışı konkretləşib və kiçilib. Bunun əksinə dünyamız böyüyüb, çevrəmiz və işlərimiz genişlənib. Qloballaşmadan danışırıq, yaşadığımız coğrafiyanı tərk edərək başqa ölkələrə, başqa coğrafiyalara gedirik, kosmosu fəth edirik. İnsan dünyaya hakim olmağa başladı. Bu böyük dəyişikliyi təmin edən ən mühüm mənbə təbii ki, informasiya və texnologiyadır. İnformasiya və texnologiyaya sahib olan cəmiyyət həmişə daha mühüm və üstün mövqedə olub və bu əbədi olaraq belə olacaq.

Texnologiyanın inkişafı, hər şeyin mekanikadan robotlaşmaya keçdiyi, rəqəmsallaşmanın yüksəldiyi dövrümüzdə zaman da sürətləndi. İndi insanlar daha çox boş iclaslarda, gərəksiz yığıncaqlarda danışmaq yerinə işləmək, istehsal etmək üçün zamana ehtiyac duyurlar.



Zamanı planlı istifadə etmək istəyən insanlar ən birinci həyatından gərəksiz məşğuliyyətləri çıxarmalı olur. Lazımsız telefon söhbətləri, lazım olduğundan uzun çəkən iclaslar, məhsuldar olmayacaq görüşlər, plansız iş günü onsuz da sürətlənən zamanı bir az da qısaldır və nəticədə biz heç bir işimizi 24 saata yerləşdirə bilmirik.

Zamanının dəyərini bilən insanlar heç vaxt nə qədər zamanının qaldığına diqqət etmirlər, onlar qalan boş zamanlarında nə iş görə biləcəklərini planlayırlar. Gündəlik öhdəliklərinizin yerinə yetirilməsi üçün cədvəl tərtib etmək çox vacibdir. Effektiv vaxt idarəçiliyi, bütün planlarınızı tətbiq edə bilmək üçün güclü planlaşdırma bacarıqlarına malik olmanızı tələb edir.

Şəxsi stress səviyyənizi tanımaq və işinizə uyğunlaşma bacarığınız zamanınızı düzgün idarə etməyinizə kömək edə bilər. Hansı saatlarda stressə düşür, hansı zaman kəsiklərində narahatlıq hiss edirsiniz, bunu təyin etməli, həmin vaxtlarda özünüzə 5 dəqiqəlik sakitləşmə fasiləsi verməyiniz, bu, geriyə qalan zamanınızı düzgün dəyərləndirməyinizə kömək edəcək. Əks halda axşamadək stressli gəzməli və bütün işlərinizi təxirə salmalı olacaqsınız. Müəyyən bir tapşırığı yerinə yetirmək üçün özünüzə vaxt təyin edin. Bu hədəfləri olan insanların tətbiq etdiyi üsullar və hər zaman effektiv olur.

Əgər fürsətiniz varsa işə başlamadan əvvəl görəcəyiniz işi planlayın və mərhələlərə ayırın. Necə deyərlər, işə başlamazdan əvvəl işə başlayın. Bu, strategiyanızı əvvəlcədən hazırlamağa başlamaq deməkdir və siz bir addım öndəsiniz. İşləyərkən özünüzə fasilə verməyi unutmayın və dincəlmək üçün 5 dəqiqə də olsa vaxt ayırın. Dincəldikdən sonra işə başlamaq daha məhsuldar işləməyinizə kömək edəcək və işinizi tez yekunlaşdıracaqsınız. Bu da o deməkdir ki, zamana qənaət edəcəksiniz və sizin daha çox boş vaxtınız qalacaq. O vaxtı isə fərdi inkişafa, dostlarla görüşə, gözəl bir film izləməyə, yaxşı bir kitab oxumağa xərcləmək olar.

***Lalə Mehralı***

***Dörd ilə yaxındır ki, işğaldan azad olunan ərazilərə Böyük Qayıdışı təmin etmək üçün Qarabağda əsaslı bərpa-quruculuq işləri aparılır. 30 il müddətində daşı-daş üstdə qalmayan şəhərlərdə yeni yaşayış evləri, binalar, məktəblər, xəstəxanalar inşa olunur. Qarabağ tamamilə yenidən qurulur, sıfırdan ən müasir infrastruktur yaradılır, yeni yollar, hava limanları, elektrik stansiyaları, kəndlər, tikilir, tarix-memarlıq abidələri bərpa edilir. Prezident İlham Əliyev inşa olunacaq yeni yaşayış binalarının, xəstəxana, məktəb, bağça, digər mühüm əhəmiyyət kəsb edən obyektlərin təməlqoyma mərasimlərində iştirak edir, əhalinin yaşayışı üçün tam hazır olan kənd və qəsəbələrin açılışında edir.***




# Böyük Qayıdış uğurla reallaşır!

## *Bu ilin ilk 6 ayında Xocalıya və Xankəndiyə ümumilikdə 100 ailənin köçürülməsi planlaşdırılır*







İşğalda olduğu müddət ərzində dağıntılara məruz qalan Xocalıda da bərpa və quruculuq işləri sürətlə aparılır. Xocalıya da böyük köçün başlayacağı gün uzaqda deyil. Hazırda Xocalı şəhərinin ərazisində 283 fərdi evdə əsaslı bərpa-quruculuq işləri həyata keçirilir. "Bakı Abadlıq Xidməti"nin yaydığı məlumatda bildirilir ki, Xocalıya köç prosesi sürətləndikcə ərazidə tikilən 200-ə yaxın həyət evi mərhələli şəkildə məskunlaşma üçün təhvil veriləcək. Eyni zamanda, biri beşmərtəbəli, digərləri 2-3 mərtəbəli 110 mənzillik binalar da Xocalı sakinləri üçün yenidən qurulur. Bundan başqa, hazırda 18 hektar ərazidə "fin evləri" adlanan sahədə 92 kottec tipli evlər yenidən qurulur ki, burada da təmir işləri başa çatmaq üzrədir. Həmçinin Xocalı şəhərində 167 hektar ərazidə 113 evin bərpasına başlanıb. Bu ilin ilk 6 ayında Xocalıya və Xankəndiyə köç nəzərdə tutulur. Həm Xocalıya və həm də Xankəndiyə 50 ailənin köçürülməsi planlaşdırılır. Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatında deyilir. Qeyd olunur ki, bu ilin ilk 6 ayında Xocalıya və Xankəndiyə ümumilikdə 100 ailənin köçürülməsi planlaşdırılır.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq hazırda Xocalı şəhərində və ayrı-ayrı kəndlərdə irimiqyaslı layihələr həyata keçirilir. Üç onillik ərzində məcburi köçkünlük taleyi yaşamaq məcburiyyətində qalan xocalılıların layiqli qayıdışını təmin etmək üçün burada ilk növbədə zəruri infrastruktur qurulur. Layihələrin icrasına müxtəlif şirkətlər cəlb olunub. "Bakı Abadlıq Xidməti" MMC Xocalı şəhərinin bərpa və yenidən qurulmasında yaxından iştirak edir. Bundan başqa, qurum Kərkicahan qəsəbəsi, Malıbəyli və Turşsu kəndlərinin bərpasına da cavabdehdir. Adı çəkilən yaşayış məntəqələrinin bərpası və yenidən qurulması tədbirlərinə başlamaq məqsədilə şirkətlə 152 milyon 247 min 600 manat məbləğində müqavilə imzalanıb.

İşğal illərində Xocalı şəhəri dağıntılarla bərabər, ekoloji terrora da məruz qalıb. Bərpa və yenidənqurma tədbirləri çərçivəsində burada yabanı bitkilərdən, məişət tullantılarından təmizləmə işləri də davam edirilir. Tullantıların yığılması üçün 10 hektar sahədə poliqon yaradılması nəzərdə tutulub. Bərpa və yenidənqurma işlərinin sürətinə mane olan yeganə amil minalar təhlükəsidir. Buna görə də ətrafındakı meşəlik ərazilər də minalardan təmizlənir. Bu da onu göstərir ki, təmir-bərpa işləri daha geniş əraziləri əhatə edəcək. Xocalı sakinlərinin kommunal təchizatla, o cümlədən də rabitə və internetlə bağlı heç bir problemləri olmayacaq. Artıq "Azercell Telekom" MMC Xocalıda baza stansiyalarını işə salıb. İndiyədək şəhərdə internet magistral xətti və genişzolaqlı internet şəbəkəsinin yaradılması təmin edilib. Eyni zamanda, elektrik, içməli su, kanalizasiya və digər daşıyıcı xətlərin çəkilişi yekunlaşıb, ev birləşmələri işi aparılır.

Böyük Qayıdış Proqramının uğurla icra edilməsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev "Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni quruculuq işləri geniş vüsət alıb", - deyə vurğulayıb. 2026-cı ilin sonuna qədər hədəfimizin 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaq olduğunu söyləyən dövlət başçısı əminliklə bildirir ki, biz buna da nail olacağıq. Ötən il ərzində işğaldan azad edilən torpaqlarımızda Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti və bərpa işləri, o cümlədən Böyük Qayıdış Proqramının uğurla icra edilməsi onu göstərir ki, bu il də Qarabağ və Şərqi Zəngəzurda ardıcıl olaraq quruculuq və qayıdış zəfərləri yaşayacağıq.

Qeyd edək ki, dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Böyük Qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib. Sənəddə vurğulanır ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq. Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik "ağıllı şəhər və Ağıllı kənd" konsepsiyaları həyata keçiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq.

***Sevinc Azadi***

# Dayə, yoxsa bağça: hansı etibarlıdır?



**“İstər dünyada, istərsə də Azərbaycanda dayə institutu, təsisatı həmişə olub”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net – Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.**

O bildirib ki, keçmişdə elitar təbəqədə - padşahlar, şahlar, krallar, xanların həyatında dayə institutundan istifadə olunub. Dayələr həm qadın, həm də kişilərdən olub. Kişilər daha çox oğlan uşaqlarının tərbiyələndirilməsi, təhsili, silahla, atla rəftarın öyrədilməsi ilə, siyasəti, fəlsəfəni, ədəbiyyatı, xəttatlığı və sair incəsənəti onlara öyrətməklə məşğul olublar. Qadın dayələr isə qız uşaqlarının böyüdülməsi və erkən yaşda oğlan uşaqlarının həm təmizliyi, sağlamlığı, dünyagörüşünün genişləndirilməsi, həm də böyüdülməsində xüsus rolları oynayıblar. Dayə institutu tarixən Avropada daha peşəkarcasına formalaşdırılıb. Amma Şərqdə də var. Şərqdə xacələr, ustadlar, müxtəlif müəllimlər olub ki, onlar oğlan uşaqlarının tərbiyəsi ilə məşğul olublar. Amma yetkinləşmiş dövrə qədər qız uşaqlarını da formalaşdıran dayələr olub.

İndi də Azərbaycanda bu təsisat getdikcə genişlənir. Əlbəttə, bu, normal haldır. Çünki həm qadın, həm də kişi müxtəlif yerlərdə işləyir. Uşaqların tərbiyəsi ilə ciddi məşğul ola bilmirlər. Təlim-tərbiyə isə erkən yaşlardan başlamalıdır. İxtisaslı mütəxəssislərdən ibarət dayələr həmin ataananın, valideynin missiyasının böyük hissəsini öz



üzərlərinə götürürlər. Onlar həm yemək hazırlamaq, həm uşağın geyimi, təmiz havada gəzdirilməsi, həm əlifbanın öyrədilməsi, elmin müxtəlif sahələrinin, o cümlədən dərs tapşırıqlarının yerinə yetirilməsi və sair məsələlərdə valideynlərə çox kömək edirlər.

MÜNASİBƏT

Hətta dünyada elektron dayə deyilən ifadələr, anlayışlar da var. Canlı dayələrin gördüyü işləri avtomatlar, xüsusi proqramlar, tətbiqlər və bunlardan sonra da robotlar yerinə yetirəcək. Söhbət canlı dayələrdən gedirsə, mütləq dayə seçimi əvvəl dövlət komissiyası tərəfindən əvvəlcədən sertifikatlaşdırılıb psixoloji, mənəvi, əxlaqi, sağlamlıq vəziyyəti, adekvat olub-olmaması xüsusi yoxlanılmalıdır. İkincisi, onların pedaqoji təlimi, attestatı, yaxud natamam ali təhsillə bağlı diplomu yoxlanılmalıdır. Həm valideynlər tərəfindən, həm işə götürənlər tərəfindən hər altı aydan bir onların sertifikatı yenilənməlidir, onlardan imtahanlar, müsahibələr götürülməlidir”.

Onun sözlərinə görə, dayələrin təmiz, sağlam olması çox önəmlidir: ”Çünki onlara həyatınızın ən qiymətli varlığını - uşaqlarınızın gələcəyinin bünövrəsini etibar edirsiniz. Bu zaman mütləq möhkəm bünövrə üzərində uşağı formalaşdırmaq, onun ömrünü planlaşdırmaqda dayənin rolu həddindən artıq böyükdür. Dayələr insandır, insana sona qədər inanmaq mümkün deyil. Dayə təsisatı ilə yanaşı, evdə kamera və smart saatlar, valideynlərin mobil telefonlardan tez-tez uşağı və dayəni müşahidə etməsi, vizual və uşaq psixoloqunun uşağı hər ay yoxlaması kimi cəhətlərə də önəm vermək lazımdır. Çünki bu vaxt dayələrdə məsuliyyət, götürdükləri öhdəlikləri layiqincə yerinə yetirmək kimi hallar yaranacaqdır. Valideyn nəzarəti həm real, həm də elektron qaydada mütləq lazımdır. Bu olmasa, öz işinə məsuliyyətsiz yanaşan, sadəcə pul xatirinə evlərdə dayəlik, xadiməlik edən şəxslərin yetişdirdiyi uşaqlar da digərlərindən fərqlənməyəcəklər.

Nə qədər savadlı olsa da, evində övladlarını formalaşdıran zaman istəristəməz boşluq yaranır. Uşaq ataanaya o qədər də inanmır, nəinki öz dayəsinə. Ona görə də dayəlik institutu ilə həm də bağçaya, orta məktəbə uşaq hazırlamaq üçün mütləq lazımdır. Sözsüz ki, əgər iqtisadi vəziyyətiniz yaxşıdırsa və işləyib uşağa baxa bilmirsinizsə, dayəlik təsisatı və bağça sistemi mütləq lazımdır. Bir insanın uşaqlıqdan sosiallaşması, ictimai, mədəni, elmi və sivil dəyərlərə malik olması vacibdir”.

**S. Ağazadə**

# Fitrə zəkatını necə verməliyik: pulla, yoxsa ərzaqla?

“Fitrə zəkatını vermək oruc tutan və tutmayan müsəlmanlara da vacibdir”. Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib. O bildirib ki, oruc tutmayan müsəlmanlar elə düşünməsinlər ki, biz oruc tutmamışıq deyə fitrə verməməliyik: ”Onlar da fitrə verməlidirlər. Oruc hamıya vacib olduğu kimi fitrə zəkatı da hamıya vacibdir.

## Fitrə zəkatı kimlərə verilməlidir?

Fitrə zəkatı gündəlik çörək pulunu qazana bilməyənlərə, ondan da aşağı səviyyəli insanlara verilməlidir. Bir şəxsin ağır xəstəsi var, pula ehtiyacı varsa, ona fitrə zəkatını pul şəklində vermək olar. Hərçənd ki, ərzaq şəklində verilməsi məsləhətdir. Amma indi insanların konkret ehtiyaclarını bilmədiyimiz üçün pul şəklində verməyin eybi yoxdur. Əsasən yoxsullara ərzaq şəklində verilməlidir. Yoxsulun ehtiyacı başqa bir şeyədirsə, ona pul şəklində vermək olar. Xəstələrə də vermək olar. Əslində xeyriyyə işlərinə fitrə zəkatını vermək doğru deyil. Hərçənd ki, olar, amma əsasən yoxsulların ehtiyacları üçün ödənməlidir. Fitrə zəkatının verilməsi zamanı fitr bayramı - Ramazan ayının bayramı günü bayram namazından öncədir. Gecikdirənlər ən geci günorta azanına qədər verməlidirlər. Səbəbsiz yerə günorta azanından gecikdirmək günahdır. Çünki ehtiyacı olan insanların gözü həmin zəkatdadır. Biz də onu gecikdirsək, onların həmin günü məhrumiyyətlə keçmiş olar”.

MÜNASİBƏT

”Zəkat çıxarmağın səbəbləri Allahın əmridir. Lakin bəzi ikinci dərəcəli səbəbləri biz başa düşürük. Zəkat çıxarmaq insanın var-dövlətini təmizləyir. Hədislərdə malın zəkatını vermək bir bağbanın öz bağındakı ağacların artıq yarpaqlarını budamağa bənzədilir. Əgər bağban həmin artıq budaqları budamasa, bağın bəhrə vermək potensialı azalacaq. Onları budasa, bağ daha yaxşı bəhrə verəcək. Malın zəkatı,



canın zəkatı, ümumiyyətlə, zəkat şəriətimizdə bu cür xarakterizə olunmuşdur: ”siz mallarınızın zəkatını verin ki, mallarınız daha da təravətlənsin, çoxalsın, inkişaf etsin”.

Bu gün iqtisadi vəziyyət əksəriyyətdə normal deyil. Ona görə də bu il 3 kq buğdanın, arpanın pulunu hesablamaq bir az məsləhət deyil. Mümkün qədər hər kəs imkanına görə mümkün qədər bahalı şeyləri nəzərə alsın. Düzdür, yazılıb ki, hər bir ailə üzvünün əvəzindən 3 kq buğdanı, ya da pulunu ödəsən kifayətdir. Amma bu gün insanların ehtiyacları çoxdur. Ailə üzvü 10 nəfərdirsə, hərəsinin adına 3 kq buğdanın pulunu ödəsək, 30 manat edəcək. Bu gün 30 manata yoxsul nə edə bilər? Ona görə də yaxşı olar ki, düyünün, xurmanın pulunu hesablasın ki, yoxsulların da əlinə bir şey keçsin. Zəkat fitrəsini ailə başçısı, ailəni dolandıran şəxs verməlidir. Bu, ata da, ana da, övlad da ola bilər. Kim işləyib ailəni dolandırırsa, ona vacibdir ki, fitrə ödəsin” - deyə o əlavə edib.

**Söylü**



Mətanət Məmmədova

*Maşın insana, insan maşına yol vermir...*

***Bizlər haqqında hansı cəza tədbirlərini, hansı cərimələri tətbiq etsələr də, yenə, necə deyərlər, yolumuzdan dönən deyilik. Bu səbəblə də elə yolumuzla da düzgün getmirik. Baxmayaraq ki, qarşıda işıqfor var, keçid xətti var, buna kimdir məhəl qoyan? Kim haradan gəldi, yolu keçir. Maşının altında qalanda da deyirik ki, günah maşındadır, bizdə deyil.***

Bəs görəsən, nə üçün dövlət əziyyət çəkib, vəsait xərc edib lazımı yerlərə işıqforlar qoyub, piyada keçidləri salıb, hətta piyadaların rahatlığı üçün keçidlər də yaradılıb, istər yerüstü, istərsə də yeraltı. Buna ki, əhəmiyyət verən olmayacaqdı, bunlardan ki, istifadə edən olmayacaqdı, nəyə lazım idi bu qədər xərc, vəsait və əziyyət?..

İnsanlar vallah, həyatlarından bezliblər. Onları böyük, həm də sürətli magistrallarda görərkən belə qənaətə gəlmək olur. Görəsən niyə həyatlarından beziblər? Axı birimizə bir şey olanda o birilərimiz dünyanı dağıdırıq ki, günah mənim uşağımda, qardaşımda, bacımda, əmimdə, xalamda olmayıb, filankəsdə olub...

Bəs bu iddiaları edənlər niyə bircə kəlmə yaxınlarına demirlər ki, ay bala, ay əzizim yolu düzgün keç. Sənə ayrılan hissə ilə sənə ayrılan vaxtda keç, ölümün gəlməsin.

Bir də baxırsan ki, budur, böyük bir magistral yolda maşın qarışıb insana, insan da maşına. Maşın insana yol verir, hansı ki, özünün keçmək vaxtıdır. Lakin insan maşına yol vermir, hansı ki, özünün keçmək haqqı da, hüququ da yoxdur. Bir də baxırsan ki, lap yaxında yeraltı keçid var, təhlükəsiz, filansız. Lakin adamlar həmin yoldaca yerin üstündədirlər, maşınların arasından ilan kimi qıvrıla-qıvrıla ötürlər, keçirlər.

Bir də baxırsan ki, yerüstü keçidi qoyub insanlar həmin yolu maşınların arası ilə, avtomobillərin siqnal səsi əhatəsində şütüyərək keçirlər.

Deyirsən, İlahi, bizə görəsən, nə olub? Nə üçün həyatımızdan belə asanlıqla vaz keçirik? Nə üçün bizim üçün yaradılanları görməyə gözümüz yoxdur ? Və ya görən gözümüz yoxdur. Və yaxud da görə bilmirik. Məgər gözlərimizi bizə İlahi- pərvərdigar yalnız baxmaqdan yanamı, dünya işığına kor qalmamaqdan yanamı verib? Bizlərdən heç kimə görməyi nəsib etməyib?

Nə üçün yalnız baxırıq, həm də düz burnumuzun ucuna baxırıq. Yaxşı olmaz ki, bir ayağımızın altına, bir başımızın üstünə, bir aşağıya, bir yuxarıya da baxaq. Axı baxsaq, görməli şeylər çoxdur. Yaxşı bu görməlilərin hamısını görməyək. Ancaq işıqforu, piyada keçid xətlərini, yeraltı, yerüstü keçidləri görək axı. Axı görməsək, maşın vurub bizi öldürəcək, ömrümüzü əlimizdən alacaq...

Hamımız yaxşı bilirik ki, onsuz da bizə nə isə olub? Amma nə olduğunu bilmirik. İndi yolun ortasındakı insanları qoyaq bir kənara, elə həmin yoldakı maşınlardan bir azca danışaq. Onsuz da yeri gəldi, gəlmədi maşınlar siqnallayır. Niyə, nə üçün, nədən ötrü, bunu hələ ki, bilən yoxdur. Amma yolda adam olanda bunu bilmək o qədər çətin deyil ki, bizdən yana siqnallayır. Deyir ki, ay piyada, niyə əcəlinlə oynayırsan, dur o sarı xəttin o tərəfində vaxtını, yolunu gözlə də.

Biz nə edirik, nə maşın, nə sürücü, nə işıqfor, nə keçid, heç birinə məhəl qoymuruq. Çünki bildiyimiz biləyimizdədir. Adət etmişik, ilan kimi maşınların arasında rəqs etməyə. Deyəndə də deyirik ki, sürət zamanıdır. İndi ki, qaçmadın, demək ki, batdın. Vallah, bu sürət zamanı yəqin o deməkdir ki, yat, qal saat 10-a, 11-ə kimi, sonra da yolda əcəlinlə oyna ki, mən təcili işə, dərsə, filan yerə çatmalıyam. Və yaxud da ki, gedəcəyim hər yerə?..

Nə olardı ki, evdən tez çıxıb bu “sürət zamanı” anlayışını leksikologiyamıza daxil etməzdik də. Axı bu anlayış axırımıza çıxacaq. Hamımızın maşınlar altında canımızı alacaq...

***Marka xəstəliyi bu gün qarşılaşılan ciddi problemlər arasındadır. Belə ki, günümüzdə insanlar ətrafdakıların bəyənməsi və qəbul etməsi üçün bahalı brendlərə müraciət edirlər. Bu məqsədlər üçün davamlı olaraq markalı məhsulların alınmasına "marka xəstəliyi" də deyilir.***

# Marka xəstəliyindən necə yaxa qurtaraq?



### Bəs, bu nədən qaynaqlanır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Araşdırmalar göstərir ki, brend xəstəliyi 2-3 yaşından başlayan bir vəziyyətdir. Dünyada uşaq kanallarında uşaqların hansı oyuncaq və paltarları alması ilə bağlı reklamlar var. Məktəb yaşlı uşaq da televiziyada hara baxırsa, gözəl geyinmiş xoşbəxt analar, atalar və uşaqlar görür. Bu insanlar müəyyən markaların paltarlarını geyinirlər. Nəticədə uşaqlarda brendlərə həvəs yaranır.

Gənclər və uşaqlar markalı məhsullardan obsesif istifadə nümayiş etdirə bilərlər. Bu davranış tək bir markaya yönəlməyib. Başqalarının qəbulunu, təqdirini və rəğbətini qazanmaq üçün müxtəlif brendlərin məhsullarına üstünlük verilə bilər. Bu məqamda önəmli olan alınan məhsulun keyfiyyət, qiymət və istifadə üstünlüklərini nəzərə almaqdansa, yalnız markasına diqqət yetirməkdir. Sanki bununla şəxs brend imici, təsiri və brendlə inteqrasiyası ilə özünü daha vacib və dəyərli hiss edir. İnsanlar öz həyat vəziyyətlərinə təsir etdiyini düşünərək markalı məhsulları seçə bilərlər. Zaman keçdikcə brend məhsulları almaq meyli asılılığa çevrilir. Fərdlər brend məhsullara üstünlük verdikdə birdən çox amili qeyd etmək olar. Bu amillərdən ən önəmlisi sosial media və ətraf mühitin təsiridir.

### Marka xəstəliyinin səbəbləri

Marka xəstəliyinin səbəblərinə baxdığımızda bu vəziyyətin inkişafında bir çox faktorun təsirli olduğu görülmüşdür. Bu amillər aşağıdakılardır:

Əsas səbəb özünü dəyərli hiss etmək və başqaları tərəfindən qəbul edilmək istəyidir. Brendlərin satış reklamları da insanları istiqamətləndirir və onların marka xəstəliyini inkişaf etdirməsinə təsir göstərir. Brendlər öz məhsullarını real şəkildə təqdim etmək əvəzinə fərqli şəkildə göstərdikdə insanlar özlərini bu markanın məhsullarını almaq məcburiyyətində hiss edə bilərlər.

Ətraf mühit faktoru da brend həvəsinə təsir edir. Yaxın dostlar, həmkarlar və ya ətrafdakı digər insanlar tərəfindən istifadə edilən bir çox marka məhsullar insana təzyiq göstərə bilər. Bu təzyiq nəticəsində insanlar həmin brendə müraciət edə bilər.

Gənclər ümumiyyətlə brendlərin ən yaxşı materiallardan hazırlandığı və buna görə də ən keyfiyyətli əşyalar olduğu illüziyalarına sahibdirlər. Eyni zamanda, brenddən istifadə zənginliyin göstəricisi hesab olunur. Bu səbəbdən gənclərdə ümumiyyətlə brend sevgisi var. Bəzi gənclər brend məhsulları sadəcə populyar olduqları və bəyəndikləri insanların reklamlarında rol aldığı üçün alırlar.

### Şəxsiyyət faktoru

Brendlə bağlı olan insanlar adətən yeniyetməlik çağında olurlar. Uşaqlıqda öyrənilən şeylər yeniyetməlik dünyasında yeni dəyərlərlə əvəz olunur. Bu proses yeniyetməlik adlanır. Köhnə və yeni dəyərlər müqayisə edilir. Yerləşdirmə zamanı sosial, cinsi və peşəkar kimliyi tanımaq üçün səy göstərilir. Bu mübarizə "şəxsiyyət böhranı" adlanır. Şəxsiyyət əldə etməyə çalışmaq normaldır. Bəzi yeniyetmələr bu dövrü çətin keçərkən, bəziləri səssizcə keçirirlər. Brend vəsvəsəsi bəzi yeniyetmələrin özlərini daha asan ifadə etmələri üçün bir vasitə kimi istifadə olunur.

### Brend sevgisinin formalaşmasında ailə faktorları

Ailə münasibətləri də marka sevgisinin inkişafı prosesində təsirli olur. Ailənin avtoritar münasibəti gənclərin brend məhsullara üstünlük vermələrinə səbəb olur. Avtoritar ailələrdə böyüyən uşaqlar inam mühitində böyümür, azadlıq hissini hiss etmirlər. Uşaq bu çatışmayan duyğuları tamamlamaq üçün brendlərə müraciət edir. Bu vəziyyət ailədaxili münaqişələrə səbəb olur. Uşaqlar boş vaxtlarını valideynləri ilə birlikdə alış-verişlə keçi- rir- lərsə, onlar alış-verişi yaxşı vaxt keçirmənin meyarı kimi öyrənirlər. Bu səbəbdən valideynlər kiçik yaşlarından övladlarına yaxşı nümunə olmalı, pul xərcləməkdə onlara yol göstərməlidirlər.

### Brend xəstəliyinin simptomları hansılardır?

Brend aludəçisi olan insanlar hər dəfə eyni markadan məhsul alırlar. Bu vərdiş faktoru ilə bağlıdır.

### Brend asılılığını necə müəyyənləşdirmək olar?

Brend məhsullara üz tutmaq davranışı yanlış deyil. Ancaq asılılıq olan markalar həyat tərzinə çevrilirsə və bu markaların məhsullarına sahib olmaq üçün ciddi bir istək varsa, müəyyən problem vəziyyətindən danışa bilərik.

### Müalicə üsulları hansılardır?

Uşaqları erkən yaşlarından şüurlu istehlaka istiqamətləndirmək, marka vəsvəsəsinin qarşısını alır. Müəllimlərdən kömək almaq və sinifdə müəyyən qaydalar qoymaqla brend vəsvəsəsi yaradan alış-verişin qarşısı alına bilər. Bu məsələnin yaranmasının qarşısını almaq üçün gənc uşağın xarici görünüşü haqqında şişirdilmiş danışmamaq da vacibdir.

Uşağın brend vəsvəsəsi olduqda, istədiyini əldə edə bilmədikdə, o, çətin durumla qarşılaşa bilər. Belə hallarda uşağa o əşyanı niyə almağın mümkün olmadığını izah etmək lazımdır. Buna görə də uşağa "Bilirəm ki, bu məhsulu çox bəyənirsən. Lakin bu gün ayırdığımız büdcə bu məhsulu almaq üçün kifayət etmir. Bilirəm əsəbisən, gəl bir az fikirləşək" kimi ifadələrdən istifadə etmək olar.

### Brend xəstəliyini necə aradan qaldırmaq olar?

Uşaqlarla pul haqqında məlumatlandırıcı söhbətlər etmək brend vəsvəsəsini aradan qaldırmaq üçün vacibdir. Pulun nə olduğu və nə üçün lazım olduğu kimi mövzuların uşaqlara 2 yaşından izah edilməlidir.

### Brend asılılığı üçün hansı həkimə müraciət etməlisiniz?

Brend asılılığı psixoloji vəziyyətdir. Bu səbəb- l ə marka vəsvəsəsinin diaqnozu və həlli üçün psixi sağlamlıq sahəsində mütəxəssis olan bir psixiatr, psixoloq və ya psixoloji məsləhətçiyə müraciət edilə bilər.

### Müalicə olunmazsa nə baş verir?

Brend asılılığı həddindən artıq olduqda, ailə münaqişələrinə səbəb ola bilər. Bu vəziyyət həm də həddindən artıq borc, iqtisadi çətinliklər və zorakılığa səbəb ola biləcəyi üçün müalicə edilməlidir.

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Hər bir insan səliqəli geyinməli və öz təmizliyinin qeydinə qalmalıdır. Hesab edirəm ki, bunda hər hansı bir qəbahət yoxdur. Amma insan öz büdcəsinə uyğun geyinməlidir. Təəssüflər olsun ki, ölkəmizdə bunun əksini müşahidə edirik. Elə adamlar var ki, onun geyimi, işlətdiyi telefon qazancına adekvat deyil. Heç kim inana bilməz ki, bu cür az maaş alan adam bu qədər bahalı telefon işlədir, yaxud bu qədər bahalı geyimlərə meyl edir. Mən adam tanıyıram ki, 3000 manatlıq telefon işlədir. Amma heç vaxt onun balansında 3 manatlıq konturu olmayıb. Həmin adamın hələ kiməsə bir dəfə zəng etdiyinin şahidi olmamışam. İşi ona-buna "vızov" atmaqdan ibarətdir. Halbuki daha normal telefon işlədib onu daim konturla təmin etmək daha məqsədəuyğun və ağıllı addım olardı.

O cümlədən geyimlə bağlı da cəmiyyətimizdə problem var. Bəzi insanlar marka geyimlərə müraciət edirlər. Əgər adamın imkanı varsa, qazancı yüksəkdirsə niyə də geyinməsin. Amma vacib olan ehtiyaclarını ödəməyib, normal qidalanmayıb bahalı geyimlər geyinmək məncə doğru yol deyil. Hesab edirəm ki bu insanın özünü göstərmək cəhdidir. Uzun illər əvvəl mən uşaq olanda məşhur bir deyim vardı. Bilmirəm onu olduğu kimi burada səsləndirmək nə dərəcədə doğrudur. Rəhmətlik nənəm deyirdi ki, "Donum parılda, qarnım curulda". İndi də biz bunun şahidi oluruq. Elə insanlar var ki, onların ancaq donu yaxud kostyumu parıldayır. Amma həm qidalanma, həm də mənəvi baxımdan bu insanlar kasaddırlar.

Marka köynəklər, ayaqqabılar geyinən adamların çoxu kitab mağazalarının yolunu tanımır. Həmin adamların arasında elələri var ki, bir dəfə kinoteatrda olmayıb, bir dəfə sərgi salonuna getməyib, bir dəfə öz intellektual səviyyəsini qaldırmağın qeydinə qalmayıb. Bu onu göstərir ki, bütün bunlar göstəriş məqsədi ilədir. Yəni kimlərəsə xoş görünmək üçün bu addımlar atılar. Mənə elə gəlir ki, insan olduğu kimi görünməlidir. Qazancı nəyə çatırsa onu geyinməli, onu da yeməlidir, qeyri-səmimiliyə ehtiyac yoxdur".

**Mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrəndik:**

**Şəhər sakini Aytac Şahin:** "Əslində mən geyimə o qədər də pul xərcləməyi sevmirəm. Çünki tez gözümdən düşür. Doğrudur, burada maddiyat da önəmlidir. Ancaq keyfiyyət də. Kimisi var həm dəbli həm də keyfiyyətli libasları xoşlayır. Əvvəldən elə öyrəşib. Bu səbəbdən marka və brend mağazalardan alışveriş edir. Ancaq eləələri də var, pulunu daha sərfəli yerə xərcləyir. Seçim məsələsidir. Bir şey də var ki, hər kəs öz yorğanına görə ayağını uzatsa lap əla olar. Borca düşüb dəb yaratmağın nə mənası var?".

Şəhər sakini Röya Vahabova: "Açığı mən buna xəstəlik deməzdim. Çünki xəstəliyin bir müalicəsi olur. Bu konkret olaraq özgüvənsizlik və göstəriş marağıdır.

Əslində markaya bu qədər düşkün insanın özgüvənsiz olmasının səbəbi digər insanların onların həyatındakı roludur. Bir marka həvəskarının ətrafı adətən marka həvəskarları ilə dolu olur. Onlar insanlara sübut etməyə çalışır ki, yaxşı gəliri var, yaxşı yeyir, yaxşı gəzir, yaxşı içir, son model telefonu var və həyatı möhtəşəmdir. İndiki zamanda sosial şəbəkələr o qədər əlçatandır ki. Və bəzi influencerlər sosial şəbəkə postlarında markalardan aldığı hədiyyələri, həyatlarını gündəlik həyatlarında hər zaman var imiş kimi göstərir. İnsanlar da həvəsə düşür. İndi kredit kartlarının əksəriyyəti marka xərclərini qarşılamağa xidmət edir. Buna görə düşünürəm ki, marka xəstəliyinin, insanların bu qədər göstəriş maraqlısı olmağının səbəbi özgüvənsizlikdən gəlir.

İnfluencerlər geyindikləri geyimlə yox, təhsil, karyera sahəsində inkişaf etsələr marka xəstəliyini geyimlərdən təhsilə daşıya bilərik. Hazırda da bu yöndə, bu sferada olan influencerlər var. Və təhsil sahəsində belə bir xəstəliyin olması pis olmazdı məncə".

Şəhər sakini Arzu Rövşən: "Bəzi insanlar bahalı telefon, marka həvəskarlarıdır. Bəziləri psixoloji olaraq maddi durumunu kiməsə göstərməyə çalışır, digərləri həqiqətən marka sevərlərdir. Zənnimcə, maddi vəziyyətini yaxşı göstərməyə çalışan insanlar şüur altı özlərini özgüvənli göstərməyə can atırlar. Elə insanlar da var ki, stress atmaq üçün lazım olmasa belə sırf marka olduğu üçün alır. Beləliklə bu hal "marka" xəstəliyinə çevrilir".

**Tövsiyə**

Brend məhsulları almaqdansa, şəxsi dəyərləri inkişaf etdirməyə diqqət yetirmək də vacibdir. Çalışqanlıq, cəsarət, tərəqqi, zəka və aktiv düşüncə kimi sahələrə diqqət yetirmək faydalıdır. Bu diqqət böyük inkişaf potensialı yaradır. Fərd özünü seçdiyi brendlər vasitəsilə ifadə etməkdənsə, səmimi varlığını ortaya qoymalıdır.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Kəlbəcərin taleyindən ötən aprellər...

**1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyi ilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Məqsəd Kəlbəcəri ayaqları olan Ağdabanla vurub onu işğal etmək idi. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarlı meşələrə, dağlara üz tutdular. Kənd sakinləri tamamilə müdafiəsiz qalmışdı, çünki onları müdafiə edən kiçik dəstə əvvəlcədən ermənilər tərəfindən məhv edilmişdi. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdı, 779 nəfər dinc sakinə divan tutdular.**




Onlar yaşlı, qoca, qadın, uşaq demədən dünyada görülməmiş vəhşiliklə dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Bu faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirildi, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırıldı. Həmçinin, 2 nəfər itkin düşdü, 12 nəfərə ağır bədən xəsarəti yetirildi, 5 nəfər isə girov götürüldü.

Bu müsibətlərin qarşısında-yaralarından qan axan, evləri viran edilmiş ağdabanlılar doğma kəndlərini tərk etmədilər. Dabanından vurulan Kəlbəcərin Ağdaban camaatı yaralarından axan qanı torpağa hopdura-hopdura kəndlərini yenidən bərpa edib yaşamağa başladılar. Lakin bir il sonra onları yenidən bundan da dəhşətli faciənin gözlədiyindən xəbərsiz idilər.

### Blitzkriq əməliyyatı və ya faşist köpəyi Nijde

Bir il sonra ermənilər Kəlbəcərin işğalına yenə də Ağdabandan başladılar. Bunun üçün onlar "Blitzkriq" adlı əməliyyat hazırlamışdılar. Blıitzkriq alman sözüdür. Blitz (ildırım), krieg (müharibə) sözlərinin birləşməsindən yaranıb. Mənası sürətli qələbə qazanmaq üçün gərgin hərbi kampaniya, "şimşək müharibəsi"dir. Bu kampaniya XX əsrin əvvəllərində alman feldmarşalı Alfred fon Şliffen tərəfindən yaradılıb. Blitzkriq zirehli tanklar və hava dəstəyi də daxil olmaqla, hərəkətli, manevr gücləri istifadə edərək düşmənə sürətli, fokuslanmış bir zərbə vurmaq üçün hazırlanmış hücum müharibəsi metodunu təsvir etmək üçün istifadə olunan bir termindir. Belə bir hücum ideal olaraq əsgər və topçu itkisini məhdudlaşdıraraq sürətli bir qələbəyə səbəb olur. I Dünya müharibəsində almanlar blitzkriqi Polşa, Norveç, Belçika, Hollandiya, Fransaya, II Dünya müharibəsində isə Rusiyaya tətbiq etmiş və uğurlu nəticələr qazanmışlar. Maraqlıdır, bunu ermənilər Kəlbəcərə necə tətbiq etmişdilər? Sovetlər Birliyinin 15 müttəfiqindən biri Azərbaycan idisə, digəri də Ermənistan idi. Nəzərə alsaq ki, Azərbaycan Ermənistandan bütün dövrlərdə zəngin bir ölkə olub, 70 il sonra 1990-cı illərdə Azərbaycan iqtisadi cəhətdən o vəziyyətdə idisə, gör indi Ermənistan hansı vəziyyətdə imiş. Yox, unutduğum fərqli bir məsələ var: erməni yaltaqlığı, riyakarlığı. Həmin dövrdə Sovetlər Birliyi özünü yenidən dirçəltmək üçün ermənilərdən hərtərəfli istifadə edirdi. Elə blitzkriq əməliyyatı da ermənilərə havadarlarının növbəti töhfəsi idi. Faktlar da bunu təsdiq edir: Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya Ordusu) dağ qoşunları Kəlbəcəri blitzkriq əməliyyatı ilə ələ keçirdi. İlk ağır müqavimətdən sonra Azərbaycan qoşunları tezliklə dağıdıldı və rayon mərkəzi 1993-cü il aprelin 3-də işğal olundu.

Hadisələrə bu günün prizmasından yanaşdıqda ermənilərin Kəlbəcərdəki alman "Blitzkriq" əməliyyatı ilə bağlı belə bir qənaətə gəlirəm ki, onlara bu əməliyyat yəqin ulu babaları Qaregin Ter-Artyunyanın (Nijde) uzun illər alman faşistlərinə köpək kimi xidmətindən ərməğandır. Maraqlıdır, Sovetlər Birliyinin tör-töküntüsü onları almanlara satan Nijdenin tör-töküntüsünə niyə bu dəstəyi verirdi? Məqsəd hərzamankı kimi çox aydındır... 30 il əvvəlin fonunda o da aydın göründü ki, Azərbaycan 30 ilə yaxın bir dövrdən sonra düşmənə "Blitzkriq" əməliyyatından da güclü həmlələr etdi.

### Kəlbəcərin sahibi gələcəkdi...

1993-cü ildə Kəlbəcər işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, lakin düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı? "Blitzkriq" əməliyyatının qarşısında ov tüfəngi nə iş görə bilərdi? Heç nə. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minillərboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları erməni tapdağı altında qalacaqdı əbədiyyən. Bu o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı. Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı, 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün. Ölkəmizin Prezidenti, Ali Baş Komandan, hər bir azərbaycanlının qürur yeri cənab İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu.

### Azərbaycanın gözmuncuğu, Qobustanın əkizi Kəlbəcər

Nəinki Azərbaycanın, bütün Qafqazın gözmuncuğu, Qobustanın əkizidir Kəlbəcər. Ərazisinə və əhalisinin sayına görə Qarabağ və ətraf rayonların ən böyüyü olan bu yurd yeri təbii sərvətləri, gözəllikləri, dağlıq, qeyri-adi əraziləri, çayları, düzləri ilə bir füsunkarlıq abidəsidir, canlı təbiət muzeyidir. 30 min ildən çox tarixi olan yaşayış məskənləri, məscidləri, VI-VII əsrlərə aid Xudavəng məbəd kompleksi, XIII əsrə məxsus Arzu xatın məbədi, silsilə alban məbədləri, Hacı Əsəd, Hacı Əhməd, Ağ körpüləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri Kəlbəcərin qədimliyinin təsdiqidir. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir. Kəlbəcərin səthi dağlıqdır, o, Murovdağ, Şahdağ və digər yüksəklikləri sinəsinə bənd edib, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinə qoyun açıbdır bu yurd yeri. Ən böyük çayımız Tərtər və onun iki böyük qolu, Bazarçayın da mənbəyi, Ulu Öndərin rəhbərliyi ilə tikilən Sərsəng Su Anbarı Kəlbəcərin ərazisindədir.







Ardı Səh. 12

# Kəlbəcərin taleyindən ötən aprellər...


















Əvvəli-Səh-11

Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlarda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrinin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və sair Kəlbəcər faunasının zənginliyidir. Və qızıl yataqları... Söyüdlü – Zod qızıl mədəni tarixə uzun əsrlərdir, məlumdur. Zod qızıl yatağının istismarı eramızın III minilliyinə təsadüf edir. Söyüdlü sahəsində 1970-1980-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə "Şəhrizər", yəni qızıl şəhəri adı ilə məşhur olub.

Kəlbəcər, bütövlükdə, bu təbii sərvəti, təbiəti, tarixi ilə Azərbaycanın göz muncuğudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var".

## Kəlbəcər bir çox məqamları təsdiqlədi

"Dostu dar gündə tanıyarlar" məsəli dilimizin deyimidir. Lakin "düşməni dar ayaqda tanıyarlar" deyimini eşitməmişdim. Sual oluna bilər ki, düşmən elə düşməndir də, onun nəyini tanımaq lazımdır ki? Bəli, düşmən düşməndir, lakin hər düşmənin də öz kökünə məxsus xisləti var. Sən demə, belə bir deyim var imiş, lakin biz bunu canlı olaraq görəcəkmişik. Bunu Kəlbəcərin ermənilər tərəfindən boşaldıldığı vaxt gördük. İşğal edərək xarabalığa çevirdikləri, bu xarabalıqlar arasında bəzi evlər saxlayıb, kəlbəcərlilərin zəhmətlə, nə kimi arzularla tikdikləri evlərinə sığınan ermənilər rayonu tərk edərkən həmin evləri, meşələri, həyətlərdəki ağacları yandırdıqları zaman gördük o deyimi. Bununla da, öz kimliklərini bir daha sübut etdilər. Sübut etdilər ki, düşmən olmaq bir ayrı məsələdir, xislətsiz, xaraktersiz olmaq bir başqa məsələ. Göstərdilər, biz də gördük. Bizim xalqın nümayəndələri ermənilərin Gəncəyə atdıqları ballistik raket nəticəsində dağılmış evlərindən çıxarkən Azərbaycan bayrağını sinəsinə sıxıb çıxdıqları halda, ermənilərin nələri sinələrinə sıxıb Kəlbəcəri tərk etdiklərini də gördük. Evləri yandırmaqda məqsədləri nə idi bu bədbəxtlərin, görəsən? Düşünürdülər ki, kəlbəcərlilər qayıdıb onların murdar nəfəsləri çökmüş evlərdə yaşayacaqlar. Əslə. Əvvəllər bədxah qonşularımız azərbaycanlılara qonaq gələndə onun istifadə etdikləri qab-qacağı atarmışlar. Oturduqları döşəkənin üzünü çıxarıb yuyub, salavatlayıb, sonra yenidən istifadə edərmişlər. İndi o evlərdəmi yaşayacaqdıq? Ermənilərin murdar nəfəsləri çökmüş divarların arasındamı yaşayacaqdı kəlbəcərlilər? Yandırdılar, dağıtdılar və 3-5 ildən sonra o torpaqlarda yaradılanları da seyr edəcəklər.

## Kəlbəcər cənnətə çevrilir...

30 ilin əvvəlində düşmən tərəfindən dabanından yaralanan, 30 ilin sonunda isə düşmənin gözünü çıxararaq onun göz dağına çevrilən Kəlbəcərin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qalacaqdır. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki, bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".

Ötən illərdə Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının fəaliyyətə başlaması, Prezident cənab İlham Əliyevin sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi, İstisuya əvvəlki şöhrətini qaytarmaq üçün 51 kilometr uzunluğunda İstisu-Minkənd yolunun çəkilməsi dövlət başçısının Kəlbəcərə səfəri zamanı söylədiyi "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir" dəyərli fikirlərdəki kimi qurulur, yaradılır, cənnətə çevrilir.

Kəlbəcər sürətlə tikilir, qurulur ki, doğma sakinlərini qucağına ala bilsin. Məlumata əsasən Kəlbəcər şəhərinə bütövlükdə tikiləcək evlərə bu il ilk olaraq 5000 nəfərdən artıq, kənd və qəsəbələrə isə 8000-ə yaxın, ümumilikdə 13000-ə yaxın insanın köçürülməsi planlaşdırılır. Tədbirlər Planına əsasən, əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi fəaliyyət istiqaməti üzrə Kəlbəcər rayonunda 2026-cı ilədək 3500 evin (2000 fərdi yaşayış evinin və 1 500 mənzilin) tikilərək istismara verilməsi nəzərdə tutulur.

Bəli, biz Kəlbəcərə qayıdırıq. Ata-baba yurdumuza, əzəli torpaqlarımıza qayıdırıq. Bu xalq XXI əsrdə yazdığı qəhrəmanlıq dastanı ilə – "Qarabağ" dastanı ilə o torpaqlara qayıdır. Dövlət-xalq birliyi, lideri ilə, şücaətlə, rəşadətlə, şəhidləri, yaralı qaziləri, 30 ilədək yurd təşnəli insanları ilə erməni qəsbkarlarından geri aldığı torpaqlara qayıdır. Orada şəhidlərinin qanı axmış torpaqları qoxulamağa, o torpaqlarda azan səsini dinləməyə, öz ata-babasının məzarını ziyarət etməyə, o torpaqlara yeni həyat verməyə qayıdır. Bir də ona görə qayıdır ki, Kəlbəcər taleyinə yazılan aprelləri onun tarixinə yaza, unudulmaz edə.

*Mətanət Məmmədova*

# Dağıdıcı müxalifət və antimilli ünsürlər Parisdən idarə olunurlar

*Azərbaycana qarşı yönəlik istənilən qərəzli və qarayaxma kampaniyasında dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər yer alırlar. Yəni xarici təşkilatların və ya ermənipərəst dairələrin Azərbaycana qarşı həyata keçirdiyi elə bir pozucu fəaliyyəti yoxdur ki, orada sözügedən ünsürlər olmasınlar. Belələrinə "sapı özümüzdən olan baltalar" deyilir.*





Təbii ki, "sapı özümüzdən olan baltalar" antiAzərbaycan fəaliyyətlərinə görə maliyyə yardımları alırlar. Həm də istər dağıdıcı müxalifət istərsə də antimilli ünsürlər daha çox gəlir əldə etmək üçün hər cür sifarişləri, tapşırıqları yerinə yetirməyə çalışırlar.

Bu dəfə növbəti mərhələ üçün yeni qazanc mənbəyi tapıblar. Öz iyrənc fəaliyyətlərini 5 aprel görüşünə dair Qərbə bəraət qazandırmaq üçün Azərbaycanda hərəkətə keçiblər. Tezisləri və Azərbaycana qarşı hədyanları da sözbəsöz eynidir. Məsələn AXCP sədri Əli Kərimli deyir ki, Paşinyanın Avropa Birliyi və ABŞ-la yüksək görüşü Ermənistanın iqtisadi, hərbi gücünün artmasına imkanlar yaradacaq. Eyni ilə Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, ağıldan yumşaq, xasiyyətdə sözəbaxan Gültəkin Hacıbəyli bildirir ki, Nikol Paşinyanın Avropa Birliyi və ABŞ-la yüksək səviyyəli sammiti ölkəsinin sosial, iqtisadi, siyasi, humanitar problemlərinin həllinə yardımçı olacaq. G,Hacıbəyli Azərbaycan cəmiyyətində ermənilərin "xaç atası" kimi tanınan E.Makrona "axsaq ördək" deyilməsindən də əndişələnib və bunun insan hüquqlarına hörmətsizlik kimi qiymətləndirib. G.Hacıbəylinin iddiasına görə, Makronun təhqir edilməsi insan ləyaqətinin alçaldılmasıdır. Xaricdəki antimilli ünsürlər də 5 aprel görüşünə xüsusi diqqət ayırırlar. Bu da xaricdəki mərkəzi şəbəkənin kordinatorlarının üzvlərə eyni tezisi göndərdiyi göstərir.

Erməni kökənli Arif Yunus isə erməni jurnalistə verdiyi açıqlamasında məsələni bir qədər də dərinləşdirir. Qeyd edir ki, 5 aprel görüşünün 80%-i Rusiya və Azərbaycanla bağlı müzakirələrə həsr olunub: "Yəni görüş zamanı Qərb Ermənistanla bağlı qapılar arxasında hərbi məsələləri müzakirə edib. Bu, bir daha göstərir ki, Azərbaycan hədəf kimi götürülüb". Xaricdəki antimilli ünsürləri əsas dayaq nöqtələri hesab olunan Sevinc Osmanqızı, Alexs (Ələkbər) Raufoğlu, Qənimət Zahid, Arif Məmmədov və digərləri də birbaşa Ermənistana dəstək üçün təşkil olunan görüşə dolayısı dəstək verilir.

### Xaricdəki antimilli ünsürlər çarəsiz və ümidsiz durum düşüblər

Görünən ondan ibarətdir ki, xaricdəki antimilli ünsürlər yaşadıqları ölkələr də oturum izni almaq üçün dəridən qabıqdan çıxırlar. Hansı ki, bu məxluqlar Azərbaycandan xaricə qaçmamışdan əvvəl sakit, rahat həyat sürüdülər. Lakin milyoner ömrü yaşamaq xəyalı ilə xaricə üz tutduqdan sonra arzu etdiklərinin sabun köpüyündən başqa bir şey olmadığını anladılar. Yəni "kabab iyinə ketmişdilər, görülər ki, eşşək dağlayırlar".

Geri qayıtmağa da üzləri olmadığından, ümidlə iş axtarışına çıxdılar. Çarəsiz və ümidsiz durumda olmalarından istifadə edən Almaniya, ABŞ, İngiltərə, Fransa kimi dövlətlərin xüsusi xidmət orqanları onların bir qismini hədə qorxu, digərlərini isə şirnikləndirici vədlərlə tora saldılar. Fakt budur ki, törtöküntüdən ibarət olan ünsürlərin böyük hissəsi Fransada veyillənirlər. Hansı ki, Fransanın, xüsusilə də E.Makronun Azərbaycana qarşı erməni maraqlarından çıxış edərək, qərəzli münasibət sərgilədiyi bəllidir. Vaxtaşırı olaraq, Qənimət Zahidin, Trol Sadıqlının, Məhəmməd Mirzəlinin və digərlərinin Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparmaları məhz Fransa xüsusi xidmət orqanlarının tapşırığının məhsuludur. Nəzərə almaq lazımdır ki. Fransa kimi vəhşi dövlətdə qeyri-fransızların sayt, qəzet, İnternet TV açması mümkünsüzdür. Bu baxımdan Qənimət Zahidin, Trol Sadıqlının, Məhəmməd Mirzəlinin və digər söyüş müxalifətinin Fransada internet TV açaraq fəaliyyət göstərmələri təsadüfi sayıla bilməz.

### Antimilli ünsürləri fikirləri Fransanın believe.com informasiya-kommunikasiya xidməti tərəfindən həyata keçirilir

Heç şübhəsiz ki, antimilli ünsürlərə yaşıl işığı Fransanın kəşfiyyat orqanları tərəfindən yandırılıb. Hər gün Azərbaycanın milli maraqlarının təhqir etmələri də Fransa xüsusi xidmət orqanları tərəfindən verilən tapşırıqdır. Əgər belə olmasa idi Azərbaycanın tanınmış şairəsi Xurşudbanu Natavanın heykəli erməni terrorçuları və fransız vəhşiləri tərəfindən təhqir edilərkən Qənimət Zahidin, Trol Sadıqlının, Məhəmməd Mirzəli etirazlarını bildirə və internet TV-lərində Fransa hakimiyyətini tənqid edərdilər. Lakin bu olmadı. Çünki müstəqil deyillər, asılı durumdadılar. Əgər cəsarət edib, Xurşudbanu Natavanın heykəlinin təhqir edilməsinə irad bildirsələrdi, həmin gün onların oturum iznini ləğv edib, Azərbaycana deportasiya edərdilər. Bunu yaxşı anladıqlarından ağılarına su alıb, susmağa üstünlük verdilər. Bu cür misalların sayını artırmaq olar, sadəcə ortada olan fakt ondan ibarətdir ki. Fransanın kəşfiyyat orqanları Parisdə və digər şəhərlərdə məskunlaşan ünsürləri tam şəkildə özlərinə tabe etdiriblər. Hətta xüsusi xidmət orqanlarının razılığı olmadan hansısa fikri səsləndirə, müraciəti yaya bilməzlər. Onların bütün fikirləri Fransanın believe.com informasiya-kommunikasiya xidməti tərəfindən həyata keçirildiyindən nəzarət funksiyası daha asandır. Çünki, anlaqsız vəziyyətdə fikrin yayımına cəhd olunarsa dərhal informasiya-kommunikasiya xidməti həmin verilişi dayandıra bilər. Bu kimi halları yaxşı anlayan söyüş müxalifəti müstəqil mövqedən çıxış etməkdən çəkinirlər. Fikirlər yalnız təqdim olunan tezislər və ya əvvəlcədən əldə olunan razılaşmalar əsasında ifadə olunur. Belə demək mümkünsə xaricdəki antimilli ünsürlərin yaşayışı yaşayış deyil, it zülmüdür.

**İLHAM ƏLİYEV**

ANALİZ

# Diabet riski olanlar kimlərdir?




HƏKİM FİKRİ

"Şəkərli diabetin ən çox rast gəlinən 2 növü var: 1-ci tip və 2-ci tip. Birinci tip diabet daha çox uşaqlarda yaranır və autoimmun proseslərlə əlaqəlidir. Yəni orqanizmin müdafiə sistemi öz orqan və hüceyrələrini zədələyərək xəstəliyə səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında endokrinoloq Nabat Ağayeva deyib. Nabat Ağayeva sözlərinə belə davam edib: "Birinci tip diabetin yaranmasına genetik faktorlar səbəb olur, həyat tərzi və irsiyyət isə az rol oynayır. İkinci tip diabet bunun əksinə olaraq, düzgün qidalanmama, fiziki aktivliyin olmaması - bir sözlə artıq çəki ilə, eləcə də irsi faktorlarla əlaqəlidir. Yaranma səbəbindən asılı olmayaraq hər iki diabetin müalicəsində sağlam həyat tərzi müalicənin ən vacib tərkib hissəsidir.

Düzgün qidalanma heç də karbohidratlardan tam məhrum olma anlamına gəlmir. Çünki uşaq qidalanın 60-70 faizə qədəri karbohidrat olmalıdır. Eləcə də böyüklərin qidalarının da böyük bir hissəsi karbohidrat olmalıdır. Lakin karbohidrat dedikdə asan mənsimsənilənlərin olmaması nəzərdə tutulur. Asan mənimsənilən karbohidratlar şəkərli, şirin və bağlamalı məhsullardır. Biz karbohidrat ehtiyacımızı liflərdən, bitkilərdən, meyvə və tərəvəzlərdən almalıyıq.Diabet artıq iri addımlarla bütün dünya üzrə və hər il statistikalara baxdıqda ildən-ilə daha da çoxalır. Nəinki diabetin özü diabetin yaratdığı fəsadlar belə artır və bu insanları araşdırdıqda böyük əksəriyyətində uşaq yaş dövründən etibarən qeyri-düzgün qidalanma və oturaq həyat tərzi günümüzün insanlarının böyük bir bəlasıdır.

Eləcə də diabetin özü deyil diabet özü artdıqca onun fəsadları da artır. Diabet səbəbindən sıradan çıxmış böyrəklər, amputasiya olunmuş ətraflar və s. Bunların hər birinin qarşısını almaq mümkündür və bunu yalnız düzgün həyat tərzi ilə nail olmaq olar. Bizim əlimizdə olan və olmayan faktorlar var. Əlimizdə olan faktorlardan biri odur ki, biz diabetə qarşı mübarizə apara bilərik, bunlar sağlam həyat tərzidir. Lakin sözsüz ki bizdən asılı olmayan səbəblər də var. Bunlar irsiyyət və genetikadır ki, qarşısını almaq mümkün olmasa da ən azından rast gəlmə tezliyini azaltmaq mümkündür".

**Ayşən Vəli**

# "Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər"

***"Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın ümumi birgə mülkiyyətinə onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (xəsarət, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.) daxildir". Bu sözləri SİA-ya danışan hüquqşünas Rəşad Əliyev deyib.***



HÜQUQŞÜNAS AYDINLIQ GƏTİRDİ

Hüquqşünas bildirib ki, həmçinin ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit təşkilatlarına və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak da ər-arvadın ümumi birgə mülkiyyətinə daxildir: "Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər-arvad da ümumi əmlak üzərində hüquqa malikdir. Sözügedən əmlakların ər-arvadın (onlardan birinin) tələbi ilə bölünmək ehtimalını da bildirən R.Əliyev vurğulayıb ki, onlar arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir".

Vəkilin sözlərinə görə, əmlak bölgüsü nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir: "Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər. Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir. Nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə 3 illik iddia müddəti tətbiq olunur".

**Ləman Sərraf**

# Rusiyalı politoloq: "Moskva Ermənistanda 2-ci anti-Rusiya cəbhəsinə imkan verməyəcək"



***Rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsova Ermənistanın yeritdiyi siyasət və onun mümkün təhlükəli nəticələri haqda "Caliber" analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "İzvestiya" qəzetinə müsahibəsində İrəvana verdiyi son sərt mesajları necə qiymətləndirərdiniz?**

- Bəli, doğrudan da, Sergey Lavrov Ermənistan rəhbərliyinin siyasətini sərt şəkildə tənqid edərək, bunu qeyri-dostluq adlandırıb. Moskva İrəvanın Gümrüdəki Rusiya hərbi bazasını NATO bazaları ilə əvəz etmək istəyindən ehtiyatlanır və bu, Ukrayna ssenarisinin təkrarlana biləcəyindən xəbər verir. Amma Rusiya Ermənistan üçün belə bir aqibəti istəməzdi. Ümid etmək istərdim ki, Ermənistan müvafiq nəticələr çıxaracaq.

**- Buna baxmayaraq, proses başlayıb. Hansı perspektivdə bitə bilər?**

-Yaxın gələcəkdə Rusiya sərhədçilərinin Ermənistandan çıxarılması tamamilə mümkündür. Gümrüdəki Rusiya hərbi bazasının çıxarılması məsələsi də İrəvanın daxili gündəliyindədir və yəqin ki, Qərb tərəfdaşları, Aİ və ABŞ ilə müzakirə olunur. Şübhəsiz ki, Qərb Gümrüdəki hərbi bazanı öz bazası ilə əvəz etmək və onun yerini tutaraq Rusiyanı bölgədən qovmaq istərdi. Üstəlik, Nikol Paşinyan bütün bunların əleyhinə deyil. Amma qanuni olaraq Rusiya Federasiyası ilə imzalanmış müqavilələrə məhəl qoymadan bu bazanı bağlaya bilməz.

Digər tərəfdən, kiçik addımlar atmaq istəyi və taktikası ilə yenə də etiraz aksiyaları ilə Rusiya bazasının Gümrüdən çıxarılmasına səbəb ola bilər. Belə olan halda Rusiyanın hərbi bazasının onun Ermənistanda qalması planlaşdırılan müddətdən tez çıxarılması mümkündür.



**-İrəvanı KTMT-dən çıxmaq barədə qərar qəbul etməyə nə mane olur?**

-İrəvanda dilemma var: KTMT-dən çıxmaq, yoxsa qalmaq? Düşünürəm ki, bu məsələ ilə bağlı qərarın verilməsində Ermənistanın Qərb tərəfdaşlarından çox şey asılı olacaq. Güman edə bilərəm ki, İrəvanın KTMT-də qalması Qərb üçün vacibdir, çünki bu halda Ermənistan öz boykotları və ya digər qeyri-məhsuldar hərəkətləri ilə təşkilatın işinə mane ola biləcək. Bundan başqa, İrəvan KTMT-də olmaqla, qərbli tərəfdaşlarını təşkilat daxilində gedən proseslərlə bağlı təlimatlandıra və casusluq edə bilər. Moskva da bunu başa düşür. İndiyə qədər Paşinyan Ermənistanın KTMT-dəki fəaliyyətinin dondurulduğunu bəyan edib və onun gələcək hərəkətləri Qərb tərəfdaşlarına lazım olanı – casusluq və ya KTMT-dən çıxmağı səciyyələndirəcək.



**- Moskva Ermənistanın Qərbə çəkilməməsi üçün hər hansı əməli addımlar hazırlayırmı?**

- Bu, ən çətin sualdır. Hesab edirəm ki, Moskvanın indiki mərhələdə əsas vəzifəsi Ermənistanda ikinci anti-Rusiya cəbhəsinin qarşısını almaqdır. Amma Ermənistanda Paşinyanın əvəzinə rusiyapərəst bir şəxsin namizədliyini irəli sürmək Moskva üçün çətin məsələdir.

Digər tərəfdən, Rusiya hələ də Paşinyanın bəyanatlarına və onun qərbyönlü "hərəkətlərinə" aktiv reaksiya verməyib, çünki Ermənistanda rusiyayönlü qüvvələr var və Rusiyada böyük bir erməni icması yaşayır. Buna baxmayaraq, Moskva öz hərəkətsizliyi ilə heç nə həll etmir ki, bu da Paşinyanın Qərbə doğru getməsinə şərait yaradır. Bu baxımdan, mənə elə gəlir ki, Rusiyanın reaksiyası daha qətiyyətli olmalıdır.

**- Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasının perspektivləri barədə nə düşünürsünüz?**

- Bakı ilə İrəvan arasında hərtərəfli sazişin imzalanması ona görə təxirə salınır ki, vasitəçilər regiona nüfuz etməyə çalışırlar və onların hərəkətləri yalnız sülhün bağlanmasına mane olur. Məhz bu münasibətlə Prezident İlham Əliyev tamamilə haqlı olaraq qeyd etdi ki, bu məsələ ilə birbaşa qonşular məşğul olmalı, Ermənistanla Azərbaycan danışıqlar masası arxasına əyləşib razılığa gəlməlidirlər. İndi isə biz Fransa və ABŞ-ın Cənubi Qafqazda öz maraqlarını aydın şəkildə irəli sürmək üçün proseslərə necə müdaxilə etdiyini izləyirik. Amma İrəvanda deyəsən bunu anlamırlar.

**- Gələcək Ermənistan-Rusiya münasibətlərini necə görürsünüz?**

- Rusiya-Ermənistan münasibətləri çox güman ki, pisləşəcək, çünki gec-tez Rusiya Ermənistanın açıq düşmənçilik siyasətinə reaksiya verməli olacaq. Moskva üçün Ermənistanda Ukrayna ssenarisinə gətirib çıxarmayacaq həll yolu hazırlamaq vacibdir.

***Tərcümə - Elçin Bayramlı***




## MÜNASİBƏT

# "Şuşaya qayıdış Azərbaycanın öz torpaqlarına sahibliyinin növbəti faktı olacaq"

"Şuşaya qayıdış təkcə şuşalıların deyil, dünyada yaşayan bütün azərbaycanlıların sevincidir. Biz o günü səbirsizliklə gözləyirik. Şuşa bizim qürurumuz, mədəniyyətimiz, tariximizdir. Şuşada görülən işlər artıq başa çatır, insanlar rahat və müasir evlərə köçəcəklər. Uşaqların təhsili üçün məktəb, əhalinin sağlamlığı üçün xəstəxana fəaliyyət göstərir, bütün kommunal xidmətlər yüksək səviyyədədir. Eyni zamanda otellərin inşası Şuşanı mədəniyyət və turizm kimi dünyaya tanıdacaq". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, bundan sonra da bir çox beynəlxalq tədbirlərin orada keçirilməsi bir ənənə halını alacaq: "Şuşaya qayıdış Azərbaycanın öz torpaqlarına sahibliyinin növbəti bir faktı olacaq. Azərbaycan xalqı öz torpaqlarına geri qayıdacağına inanırdı. Buna dövlət başçısı İlham Əliyevin xalqın dəstəyi ilə apardığı siyasət dəlalət edirdi. Vətən müharibəsindən xeyli əvvəl qayıdış proqramı hazırlanmışdı".Deputat sözlərinə davam edərək bildirib ki, 44 günlük müharibədən sonra müəyyən korrektələrlə həmin proqram həyata keçirilməyə başladı: "Artıq 5 yaşayış məntəqəsində 5 mindən çox insan yaşayır. İlin sonunadək 25 yaşayış məntəqəsində 20 mindən çox keçmiş məcburi köçkün öz dədə-baba torpaqlarına geri qayıdacaq. Bu bir daha göstərir ki, Azərbaycan xalqı öz torpağına bağlıdır. Azərbaycan Prezidentinin milli maraqlarına cavab verən siyasəti öz təsdiqini tapır və zaman keçdikcə işğaldan azad olunan ərazilərdə müasir, insanların tələbatlarına cavab verən yaşayış məntəqələrinin salınması davamlı olacaq. Azərbaycan öz inkişafı ilə dünyanın diqqətini cəlb etməyə davam edəcək".

***Ləman Sərraf***

# Ekoloq: "COP29 Azərbaycanın ekoloji problemlərinin həlli üçün təkan olacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb.*





2024-cü ilin 11-24 noyabr tarixlərində Bakıda COP29 konfransı təşkil olunacaq. COP, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. Konfrans çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin Bakıya gələcəyi gözlənilir. Ekoloq Jurnalistlər Birliyinin sədri, jurnalist-ekoloq Cəmşid Bəxtiyarla bu mövzu ətrafında müzakirə apardıq.

**-Azərbaycan bu il BMT-nın İqlim Dəyişikliyi Konfransına (COP29) ev sahibliyi edəcək. Bu Azərbaycan üçün nə vəd edir?**

- BMT nin İqlim Dəyişikliyi Konfransının növbəti 29-cu toplantısının Azərbaycanda keçirilməsi, Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi Azərbaycan üçün bir çox dividendlər vəd edir. Siyasi dividendlərdən əlavə, Azərbaycandan da yan keçməyən qlobal problemlər - ətraf mühit problemləri, məsələn, səhralaşma prosesinin, şoranlaşmanın sürətlənməsi, eyni zamanda meşələrin tükənməyə doğru getməsinin müzakirəsi deməkdir.

Əlbəttə meşələrin tükənməsi səhralaşma prosesinin tərkib hissəsi sayılır. Azərbaycanın meşə fondu getdikcə azalan xəttlə inkişaf edir. Son 80 ilin statistikasına diqqət eləsək, görəcəyik ki, Azərbaycanın 80 il əvvəlki meşə fondunun indi heç 60 faizi qalmayıb. Bu, acınacaqlı bir göstəricidir və Azərbaycanda bu prosesin qarşısının alınması istiqamətində güclü bir təkan olacağını COP29-dan gözləmək olar. Bu tədbirin Azərbaycanda keçirilməsinin xüsusi bir təkan olacağını gözləmək olar və buna çox ümid edirəm.

**-Tükənən enerji ehtiyatlarına alternativ ölkəmizdə ən əlverişli yaşıl enerji imkanı nədir? Külək, günəş, su ilə enerji imkanları necə dəyərləndirilməlidir?**

- Alternativ enerji resurslarına görə bizim ölkəmiz planetimizin ən zəngin ölkələrindən biri hesab olunur. Bizim ölkənin müxtəlif əraziləri, Bakı və Abşeron ərazisi həm külək enerjisi üçün, həm də günəş enerjisi üçün çox əlverişli imkanlara malikdir. Məsələn, Qobustandakı Günəş Günəş enerjisi stansiyası indiyə qədərki göstəricilərinə görə sübut edir ki, burada həqiqətən də günəş enerjisi üçün çox faydalı imkanlar var və bu imkanlardan təbii ki, istifadə etmək ətraf mühit problemlərinin həllində xüsusi bir rola malikdir.

Eyni zamanda külək enerjisindən istifadə barədə də bunu demək olar. Külək enerjisi təkcə Bakı, Xəzər sahili zolaqda deyil. Eyni zamanda bizim yüksək dağlıq ərazilərdə də böyük imkanlar var. Bunlardan istifadə etmək üçün faydalı mövqelər mövcuddur. Məsələn, dağ yüksəkliklərində güclü küləklərin olmasını, dağda yaşayan, dağlıq ərazilərimizə bələd insanların hər biri təsdiq eləyə bilər. Məsələn, Kəlbəcərin Sarıyer yaylağında ilin bütün fəsillərində güclü küləklər əsir, xüsusilə də qış aylarında. Yəni belə ərazilərimiz kifayət qədərdir, bu ərzilərin həmin imkanlarından ağıllı şəkildə istifadə etsək, əlbəttə, bu, həm də enerji bolluğu deməkdir, həmçinin ətraf mühit, problemlərin həllində də bunların böyük faydası var.

Bu fayda nədən ibarətdir? Məsələn, biz bilirik ki, bir çox dağlıq ərazilərdə qazlaşdırma mümkün olmadığına görə, odundan yanacaq kimi istifadə çox qədim zamanlardan bir ənənə şəklini alıb və bu, çox təəssüf ki, hələ indiyə qədər davam edir. Meşələrin mühafizəsi nə qədər yaxşı təşkil olunsa belə, heç kim ailəsinin qışda soyuqdan donmasını qəbul etməyəcək. Təbii ki, buna görə də hər hansı bir üsulla meşədən odun gətirib qışda yanacaq kimi istifadə etməyə can atacaq. Bunun qarşısını heç nə ilə almaq mümkün deyil. İnsanları qışın şaxtası ilə baş-başa buraxmaq təbii ki, bu çıxış yolu deyil. Bu halda bizim ağlımıza ən yaxşı, ən faydalı bir çıxış yolu kimi alternativ enerji mənbələrindən həmin ərazilərdə istifadə etmək və gəlir və bu imkanlardan istifadə olunarsa, həm ətraf mühit problemlərinin həllinə nail olmaq olar, həm də enerji bolluğu yaratmış olarıq və buna görə də alternativ enerji mənbələrindən istifadə istənilən halda fayda gətirir.

**-Biokütlədən alınan enerji bizim ölkəmiz üçün effektiv ola bilərmi? Buna yetərli təminat varmı?**

-Biokütlələrdən alınan bioqazmetan qazı istehsalı imkanları var. İstənilən bir maldarlıq, heyvandarlıq ferması yaxınlığında bu enerjidən istifadə üçün imkanlar var və bu imkanlardan təbii ki, ağıllı şəkildə istifadə olunarsa, bunun bir çox faydaları ola bilər. Digər alternativ enerji növlərindən bioenerji təbiətə, cəmiyyətə verdiyi faydalar baxımından daha üstündür. daha faydalıdır. Bu enerji növü daha çox təbii qazın alternatividir, çünki bioqaz qurğularının istehsal etdiyi enerji metan qazından ibarətdir və bu da təbii qaz kimi yanar qazdı. O təbii qaza nisbətən daha ağır yanacaqdır, yəni onun verdiyi istilik enerjisi daha çoxdur, istilik əmsalı daha üstündür.

Digər tərəfdən, məsələn, bioqaz enerjisinin xüsusi bir xətlərlə çəkilişinə ehtiyac yoxdur. Lokal qurğulardan istifadə olunur və elə mövcud olduğu yerdə də istifadəsi mümkündür. Təbii qazın isə yüksək dağlıq regionlara təchizatında bildiyimiz çətinliklər var. Relyef, uzaqlıq məsələləri, ümumiyyətlə daha çox vəsait tələb olunur. Amma bu vəsaitin tələb olunmadığı bir enerji növü axtarmalı olsaq, bioqaz enerjisinin üzərində dayanmalıyıq. Bioqaz enerjisinin istənilən heyvandarlıq təsərrüfatı olan yerlərdə tətbiqi mümkündür. Yəni heyvandarlıq təsərrüfatlarının tullantısını, peyinini bioqaz qurğularında xüsusi bir prosesə məruz qoymaq əldə edilir.

Bu prosesdə peyinin tərkibindəki biorqanizmlər, mikroorqanizmlər aktivləşdirilir. Onlar da bir neçə qrupa bölünürlər - psixofillər, termofillər, mezofillər. Mezofillər ikinci yerdədir, temperatur tələbatına görə. Termofillər isə 45 dərəcədən yuxarıda aktivləşirlər. Psixofillər və mezofillər daha aşağı temperaturlarda aktivləşə bilirlər və bunların hər hansı bir reaktorda aktivləşdirilməsi yolu ilə peyindən əmələ gətirdiyi qaz, təbii qazın alternativ olaraq bir yanacaq kimi istifadə oluna bilər. Bu üsul meşələrin qorunmasında ən faydalı resursdur. Digər tərəfdən bioqaz qurğularının əsas faydası heyvandarlıq təsərrüfatlarının tullantısının ətraf mühitə verdiyi zərərin qarşısını ala bilməsidir. Bir çox ekoloqlar hətta bu zərərin qarşısını almaq üçün heyvandarlıq təsərrüfatlarının azaldılmasını, bir çoxları isə ümumiyyətlə ixtisarına dair çağırışlar edirlər.

**- İstixana qazları emissiyalarını nəzərdə tutursunuz?**

-Bəli. Peyin heyvandarlıq təsərrüfatlarının tullantısıdır, atmosferə açıq şəkildə atıldığı zaman orada gedən xüsusi proseslər nəticəsində ayrılan metan qazı atmosferin yuxarı qatlarına qalxır və istixana effekti deyilən problemin yaranması ilə nəticələnir. Bu metan qazının bioqaz qurğularının reaktrında toplaşması isə bu qazdan faydalı bir enerji növü kimi istifadə etmək deməkdir. Bununla metan qazının atmosferə atılmasının qarşısını alırıq və istixana effekti yaranmasındakı iştirakına mane olmuş oluruq.

Üstəlik bioqaz qurğusunun verdiyi faydalar bununla bitmir. Bioqaz qurğularının daha bir faydası isə həmin istifadə edilən peyindəki mikroorqanizmlər o peyini həzm edərək yeyib yenidən ifraz etməsidir və həmin peyin artıq peyin olmaqdan çıxaraq bioqumusa çevrilir. Bioqumus isə ən faydalı və ən qiymətli gübrədir. Onun Avropadakı 20 il bundan əvvəlki qiyməti 4000 evro idi. İndiki qiyməti düzü necədir, onu bilmirəm, amma yəqin ki, bu son bahalaşmalar, inflyasiya bioqumusun da qiymətində artıma səbəb olub. Yəni bu çox faydalı bir gübrə növüdür və həmin biokütlə enerjisi ilə əldə eləmək olur. Digər tərəfdən isə təbii qaz xətlərinin çəkilişinin tələb etdiyi artıq xərclərdən yaxa qurtarmış oluruq.

**-Yaşıl enerjidən faydalanan hansı ölkənin təcrübəsi bizim üçün yol xəritəsi ola bilər?**

-Yaşıl enerjidən faydalanan ölkələr çoxdur. Məsələn, bir çox Avropa ölkələri, o cümlədən Skandinaviya ölkələrində. Almaniyanın özündə, bir çox başqa Avropa ölkələrində, Hollandiyada alternativ enerjilərdən gen-bol istifadə olunur. Onların bizim üçün yol xəritəsi ola bilməsi bəlkə də mümkündür, amma mən bunu istəməzdim. Çünki mən daha üstün bir modelin Azərbaycanda tətbiq olunmasını gözləyirəm və biz buna nail ola bilərik. Ölkə başçısının bu sahədə atdığı addımlar və onun bu sahədəki irəliləyişi, bu tətbiqin bizə verə biləcəyi faydanı çox gözəl anlaması, bir çox məsələlərin tezliklə həll olunacağını, bu istiqamətdə tezliklə yüksək bir inkişafa nail olacağımızı proqnozlaşdırır. Mən buna ümid edirəm və inanıram.

**-Bakı kimi küləkli bir şəhərdə küləkdən enerji almaq üçün çox vəsait tələb olunur?**

-Enerji imkanları külək, günəş, su, eyni zamanda bioenerji sahəsində hər regiona görə müxtəlif cür dəyərləndirilməlidir. Məsələn, dağ çaylarının üzərində mini su elektrik stansiyalarının tikilməsi xüsusi bir enerji bolluğu yaratmağa qadirdir. Məsələn, təkcə işğaldan azad olunandan bəri Kəlbəcərin ərazisindən axan Tərtər çayı üzərində bir neçə mini su elektrik stansiyası tikilib və artıq Kəlbəcər bir bölgə olaraq nəinki özünü, hətta qonşu bölgələri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Hal hazırda orada təqribən 4-5 mini elektrik stansiyası istifadəyə verilib. Amma bu heç də tam siyahısı deyil orada tikiləcək su elektrik stansiyalarının. Təkcə Tərtər çayı üzərində 12 belə kiçik mini su elektrik stansiyası tikilməsi planlaşdırılır. Onlardan 4 və yaxud 5-i artıq istifadəyə verilib. Vaxtilə Kəlbəcər yeni işğaldan azad olunanda ora Daşkəsən ərazisinə çəkilən elektrik xətti ilə indi artıq Kəlbəcərə deyil, Kəlbəcərdən elektrik enerjisi nəql edilir və bu, qonşu rayonların ehtiyaclarına yönəldilir. Təkcə Bakıda deyil, külək enerjisindən istifadə imkanları Azərbaycanın başqa regionlarında da var. Amma hətta Bakı, Abşeron, ümumiyyətlə Xəzər sahili ərazilər külək enerjisindən istifadə üçün böyük imkanlar verməsinə baxmayaraq, bəli, külək enerjisindən istifadə də o qədər də ucuz deyil. Niyə? Ona görə ki, o qurğuları biz özümüz istehsal eləmirik. Biz onları başqa istehsalçı ölkələrdən alıb gətiririk və onlar onu heç də ucuz qiymətə satmırlar. Günəş enerjisi əldə etmək üçün lazım olan günəş panelləri və onun digər aksessuarlarını, akkumlyatorları bahadır.

Bir evin günəş enerjisi ilə təchiz olunması üçün 12 -15 min manat vəsait tələb olunur, 12-15 min manatı hansı ailə günəş elektrik enerjisinə xərcləyə bilər? Ondansa elə vərdiş etdiyimiz enerjidən istifadə edərik ki, ayda 50-60 manat verib elektrikə olan tələbatı ödəyirik. Yəni o demək istədiyim odur ki, günəş, külək enerjisindən istifadə üçün qurğular çox bahadırlar. Amma biz, madam ki, bu sahəyə bir ölkə olaraq maraq göstəririk, yaxşı olardı ki, bu qurğuların istehsalına nail ola bilək ölkəmizdə. Xüsusilə də külək enerjisindən istifadə üçün külək pərləri istehsal baxımından çətinlik yaradan bir sahə deyil, onlara nail ola bilərik. O zaman əlbəttə, siz dediyiniz kimi çox ucuz başa gələr bizə külək enerjisi və onun faydalarından biz də yararlanmış olarıq.

**-Bərpa olunan enerji mənbələrinin payının artması üçün hansı tədbirlər görülməlidir?**

-Əlbəttə ki, alternativ enerji poliqonlarının sayını artırmaq lazımdır. Bu sahəyə xüsusi yatırımlar eləmək lazımdır dövlət səviyyəsində. Günəş enerji poliqonları, külək enerji stansiyaları, çoxlu su elektrik stansiyalarının bunların sayını artırmaq, genişləndirmək lazımdır. Amma bioqaz enerjisindən istifadənin bu siyahıya əlavə olunması, onun da payının sanballı bir yer tutması üçün başqa tədbirlərə də ehtiyac var. Bu nədir? Kənd təsərrüfatı, heyvandarlıqla məşğul olan insanların bu sahəyə marağını artırmaq lazımdır. Təbliğatı müəyyən bir səviyyəyə qaldırılmalıdır. Bu bir jurnalistin yazması ilə kifayət eləmir, ümumiyyətlə, mətbuata bu sahənin təbliği ilə bağlı xüsusi tapşırıqlar verilməlidir. Jurnalistlər əlbir olaraq bu sahənin təbliğatına xüsusi diqqət ayırmalıdırlar. Yəni mətbuatın rolu danılmazdır.

Digər tərəfdən, dövlət həmin təsərrüfat sahiblərini maraqlandırmalıdır ki, onlar alternativ enerjinin məhz bu növündən - bioqazlardan istifadə etsinlər. Çünki bu xüsusi bir əziyyət tələb eləyən işdir. Təsərrüfat sahibi üçün əlavə bir fiziki əməkdir bu, peyinin ora yüklənməsi, bu qurğuya qulluq olunması əlavə işdir. Dövlət təkcə enerji təchizatı baxımından yox, əlavə olaraq əməyi qiymətləndirilməlidir ki, təsərrüfatçı maraqlı olsun. Yəni bir təsərrüfatı üçün əlavə bir bioqaz qurğusu sadəcə qaz almaq məqsədi daşımamalıdır, həmin təsərrüfat sahibindən gübrənin satın alınması dövlət səviyyəsində təşkil olunmalıdır. Əlavə olaraq onun bu bioqaza çəkdiyi zəhmət ödənilməlidir.

Burada dövlət nə qazanacaq? Zərərli qazların atmosferə açıq şəkildə atılmasının qarşısını alacaq və onun bayaq sadaladığım zərərlərindən atmosferi qorumuş olacaq, üstəlik zəhmətkeş insanın zəhməti qiymətləndiriləcək. Əks halda bioqaz enerjisinin tətbiqinə edilən hər hansı bir tətbiq sonda uğursuzluqla nəticələnəcək. Hər hansı bir həvəskar ekoloq ola bilər ki, buna cəhd eləsin, hər hansı bir şəkildə buna nail olsun. Amma onun davamlı olaraq bunu sona qədər bu qurğunu işlək vəziyyətdə saxlaması və bir nümunə kimi hamıya göstərməsi ki, baxın necə də faydalıdır, bu qeyri-mümkündür. Qonşusu ondan bir fayda görməyəcək, çünki o, bunu dəlilik hesab edəcək ki, bu qədər əziyyət çəkir. Fikirləşəcək ki, ayda 10 -15 manat qaza pul xərcləyir və qazla təchiz olunur, amma bu adam gör nə qədər əziyyət çəkir ki, nə var, nə var 15 manat pula qənaət edəcək. Onlar bunu belə qiymətləndirirlər. Amma əslində isə bayaq sadaladığım faydaları var, dövlətə, atmosferə, dünyaya. Ona görə bu cür təşəbbüs göstərən həvəskar ekoloqlar dövlət səviyyəsində qiymətləndirilməlidir və bu yolla insanlar təşviq edilməlidir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

9 aprel
2024-cü il

# WhatsApp yazışmaları sübut kimi istifadə edilə bilər?



***"Əqdin qarşı tərəfinə qarşı xəbərdarlıq olunmadan yazılan səs yazıları (danışıqlar) və yazışmalar (Whatsapp kimi sosial mobil tətbiqdəki yazışmalar daxil olmaqla) məhkəmədə sübut qismində istifadə oluna bilər". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullayev deyib.***

## VƏKİL AÇIQLADI



Vəkil sözlərinə belə davam edib: "Bu məsələ Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun N.Əsədovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 5 avqust 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 12 aprel 2021-ci il tarixli qərarında öz əksini tapmışdır.

Orada qeyd olunmuşdur ki, şəxs tərəfindən əqdin qarşı tərəfinin bildirdiyi iradə ifadələrini əks etdirən danışıqların həmin münasibət barəsində yaranan hüquqi mübahisənin həllində istifadə olunması özlüyündə şəxsi toxunulmazlıq hüququna qəsd kimi qiymətləndirilə bilməz. Belə ki, həmin danışıq və yazışmalar əqdin tərəfləri üçün sirr deyildir və mahiyyət etibarı ilə aralarındakı hüquqi münasibətlə bağlı bir-birlərinə yazılı mətn halında çatdırdıqları iradə ifadələrindən və bildirişlərindən fərqlənmir. Bu baxımdan başqa şəxslə deyil, birbaşa əlaqədar tərəflər arasında olan danışıqların mülki mübahisənin həlli zamanı istifadə edilməsi qanuna zidd deyil.

Subyektlərin öz aralarındakı hüquqi mübahisə ilə bağlı bir-birlərinə bildirdikləri iradə ifadələrini əks etdirən danışıqların xəbərdarlıq etmədən yazılması həmin mübahisəsinin hüquqi həlli baxımından sübut kimi istifadə oluna bilər. Çünki tərəflərin əqdlə bağlı bir-birlərinə olan iradə ifadələrinin xəbərdarlıq etmədən yazılaraq həmin mübahisənin hüquqi həlli baxımından sübut kimi istifadə olunması nə şəxsi sirrin pozulması, nə də ki, subyektin şərəf və ləyaqəti ilə bağlı şəxsiyyət dəyərələrinin pozulmasına səbəb olmur.

Subyektlərin öz aralarındakı hüquqi mübahisə ilə bağlı bir-birlərinə bildirdikləri iradə ifadələrini əks etdirən danışıqların xəbərdarlıq etmədən yazılaraq həmin mübahisənin həllində sübut kimi istifadə olunması Mülki Prosessual Məcəllənin tələblərinə zidd deyil".

*Ayşən Vəli*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "E-taksi" yaradılıb, kartı olmayanlar cərimələnəcək

Taksi fəaliyyətinə dair nəzarət mexanizminin həyata keçirilməsi üçün "AYNA" informasiya sistemində "E-taksi" alt sistemi yaradılıb. Operatorlar tərəfindən adsızlaşdırılmış məlumatlar real vaxt rejimində həmin sistemə ötürüləcək. SİA-nın Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə istinadən xəbərinə görə, bununla yanaşı ərazidə fiziki olaraq AYNA və DYP əməkdaşları tərəfindən buraxılış kartları yoxlanılacaq.

Buraxılış kartı olmadan taksi minik avtomobilləri ilə sərnişin daşıyanlar İnzibati Xətalar Məcəlləsinə əsasən cərimələnəcək.




# "Düzgün çalışmaq və hədəflərə doğru irəliləmək lazımdır"




Heç zaman əziyyət yerdə qalmır, düzgün çalışmaq və hədəflərə doğru irəliləmək lazımdır. SİA xəbər verir ki, bunu Azərbaycanın sərbəst güləşçisi Hacı Əliyev şəxsi instaqram hesabında yazıb.

Bakıda keçirilmiş Avropa Olimpiya Təsnifat turnirində olimpiadaya lisenziya əldə edən təcrübəli idmançı doğma azarkeşlər önündə möhtəşəm qələbə qazandığını bildirib: "Artıq üçüncü dəfədir ki, Yay Olimpiya Oyunlarına vəsiqə qazanıram. Bu, tarixi qələbədir. Üçüncü olimpiya medalına doğru addımlayıram. Yarışda mənə dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm".

Əliyev çətin yolda ona dəstək olan və kömək göstərən insanların çox olduğunu vurğulayıb: "Cənab Prezidentimiz İlham Əliyevə mənə və idmançılara hər zaman göstərdiyi diqqət üçün təşəkkür edirəm. Eyni zamanda Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarova, federasiyanın bütün işçi, məşqçi, idmançı və həkim kollektivinə minnətdaram. Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevə, SOCAR prezidenti Rövşən Nəcəfə, uzun illərdi yanımda olan ailəmə, atama, anama, şəxsi məşqçilərimə və illərdir məni tək qoymayan, hər gün yanımda olan qardaşım Yaşar Əliyevə təşəkkür edirəm. Bu, hər birimizin, xalqımızın qələbəsidir. İnşallah, yolumuz Paris-2024 Yay Olimpiya Oyunlarınadır. Rəbbim bizə hər zaman qələbə nəsib etsin. Bu sevinci yaşadan Allaha həmd olsun".


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**